BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO MALİYYƏ AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

31 dekabr 2023-cü il tarixinə
Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorların Hesabatı

MƏZMUN

MÜSTƏQİL AUDİTORLARIN HESABATI

MALİYYƏ HESABATLARI

Maliyyə Vəziyyəti haqqında Hesabat 3
Məcmu Gəlirlər haqqında Hesabat 4
Kapitalda Dəyişikliklər haqqında Hesabat 5
Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat 6

MALİYYƏ HESABATLARINA AİD QEYDLƏR

1 Cəmiyyət və Onun Fəaliyyəti 7
2 Cəmiyyətin Əməliyyat Mühiti 7
3 Əsas Uçot Prinsiplərinin Xülasəsi 8
4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr 15
5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara Dair Şərhlərin Tətbiqi 16
6 Yeni Uçot Qaydaları 18
7 Pul Vəsaitləri və Onların Ekvivalentləri 20
8 Müştərilərə Verilmiş Kreditlər 20
9 Əmlak, Avadanlıq və Qeyri-Maddi Aktivlər 24
10 Digər Aktivlər 25
11 Müddətli Borc Öhdəlikləri 25
12 Buraxılmış Borc Qiymətli Kağızları 26
13 Digər Öhdəliklər 26
14 Nizamnamə Kapitalı 26
15 Faiz Gəliri və Xərci 26
16 Digər Gəlirlər 27
17 İnzibati və Digər Əməliyyat Xərcləri 27
18 Mənfəət Vergisi Xərci 27
19 Təəhhüdlər və Şərti Öhdəliklər 28
20 Əlaqəli Tərəflərlə Qalıqlar və Əməliyyatlar 28
21 Maliyyə Risklərinin İdarə Edilməsi 29
22 Maliyyə Alətlərinin Ədalətli Dəyəri 34
23 Maliyyə Alətlərinin Qiymətləndirmə Kateqoriyaları üzrə Təqdim Edilməsi 35
24 Hesabat Dövründən sonra Baş Vermiş Hadisələr 35

UHY AUDİT MMC

"Çinar Plaza" Biznes Mərkəzi,
25-ci mərtəbə, Heydər Əliyev
prospekti 152, AZ1029,
Bakı, Azərbaycan

Tel +994 (12) 480 13 62
E-poçt info@uhy-az.com
Veb www.uhy-az.com

MÜSTƏQİL AUDİTORUN HESABATI

Bank Olmayan Kredit Təşkilatı "Viator Mikro Kredit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin İdarə Heyətinə:

Rəy

Biz, Bank Olmayan Kredit Təşkilatı "Viator Mikro Kredit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət" adlandırılacaq) 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin təsviri və digər izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından düzgün əks etdirir.

Rəy üçün Əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar üzrə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının mühasiblər üçün dərc etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi və MBESŞ məcəlləsinin tələblərini yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə Hesabatlarına görə Rəhbərliyin və İqtisadi Subyektin İdarə Edilməsinə Cavabdeh olan Səlahiyyətli Şəxslərin Məsuliyyəti

Rəhbərlik bu maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladığı zaman, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət edilməsinə görə məsuliyyət daşıyır.

Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməmənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatında təsvir edirik.

UHY AUDIT LLC

28 mart 2024-cü il
Bakı, Azərbaycan Respublikası

	Qeyd	31 dekabr 2023-cü il	31 dekabr 2022-ci il
Aktivlər			
Pul vəsaitləri və onların ekvivalentləri	7	311,147	450,049
Müştərilərə verilmiş kreditlər	8	8,112,145	6,265,458
Əmlak, avadanlıq və qeyri-maddi aktivlər	9	278,164	349,031
Təxirə salınmış vergi aktivi	18	39,505	28,740
Digər aktivlər	10	34,767	70,928
Cəmi aktivlər		**8,775,728**	**7,164,206**
Öhdəliklər və Kapital			
Öhdəliklər			
Müddətli borc öhdəlikləri	11	3,286,571	2,049,022
Buraxılmış borc qiymətli kağızları	12	350,000	600,000
Digər öhdəliklər	13	36,951	6,617
Cəmi öhdəliklər		**3,673,522**	**2,655,639**
Kapital			
Nizamnamə kapitalı	14	693,774	693,774
Yenidənqiymətləndirmə üzrə artım		89,064	103,368
Bölüşdürülməmiş mənfəət		4,319,368	3,711,425
Cəmi kapital		**5,102,206**	**4,508,567**
Cəmi öhdəliklər və kapital		**8,775,728**	**7,164,206**

28 mart 2024-cü il tarixində İdarə Heyəti adından təsdiq edilmiş və imzalanmışdır.

Aynur Əliyeva
İcraçı Direktor

Ruslan Qarayev
Maliyyə Meneceri

	Qeyd	31 dekabr 2023-cü il tarixində bitən il	31 dekabr 2022-ci il tarixində bitən il
Faiz gəliri	15	1,805,091	1,521,152
Faiz xərci	15	(284,071)	(156,876)
Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat ayırmalarından əvvəl xalis faiz gəliri		**1,521,020**	**1,364,276**
Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat ayırmalarının geri qaytarılması	8	636	219,444
Bərpa edilmiş məbləğlər	8	604,544	513,527
Silinmiş kreditlərin bərpası üzrə gəlir	8	280,017	-
Ümidsiz kreditlərin silinməsi üzrə zərər	8	-	(326,086)
Xalis faiz gəliri		**2,406,217**	**1,771,161**
Digər gəlir, xalis	16	30,244	4,914
İnzibati və digər əməliyyat xərcləri	17	(1,779,787)	(1,577,887)
Xarici valyuta mübadiləsindən yaranan xalis zərər		(422)	(394)
Mənfəət vergisindən əvvəl mənfəət		**656,252**	**197,794**
Mənfəət vergisi xərci	18	(62,613)	(49,093)
İl üzrə mənfəət		**593,639**	**148,701**
Digər məcmu gəlir		-	-
İl üzrə cəmi məcmu gəlir		**593,639**	**148,701**

28 mart 2024-cü il tarixində İdarə Heyəti adından təsdiq edilmiş və imzalanmışdır.

Aynur Əliyeva
İcraçı Direktor

Bank Olmayan Kredit Təşkilatı Viator Mikrokredit Azərbaycan MMC

Ruslan Qarayev
Maliyyə Meneceri

	Nizamnamə kapitalı	Yenidənqiymət-ləndirmə üzrə artım	Bölüşdürülməmiş mənfəət	Cəmi kapital
1 yanvar 2022-ci il tarixinə	**693,774**	**117,672**	**3,548,420**	**4,359,866**
İl üzrə cəmi məcmu gəlir	-	-	148,701	148,701
Yenidənqiymətləndirmə üzrə artımın amortizasiyası	-	(14,304)	14,304	-
31 dekabr 2022-ci il tarixinə	**693,774**	**103,368**	**3,711,425**	**4,508,567**
İl üzrə cəmi məcmu gəlir	-	-	593,639	593,639
Yenidənqiymətləndirmə üzrə artımın amortizasiyası	-	(14,304)	14,304	-
31 dekabr 2023-cü il tarixinə	**693,774**	**89,064**	**4,319,368**	**5,102,206**

28 mart 2024-cü il tarixində İdarə Heyəti adından təsdiq edilmiş və imzalanmışdır.

Aynur Əliyeva
İcraçı Direktor

Viator Kənk Olmayan Kredit Təşkilatı Mikrokredit Azərbaycan MMC

Ruslan Qarayev
Maliyyə Meneceri

	Qeyd	31 dekabr 2023-cü il tarixində bitən il	31 dekabr 2022-ci il tarixində bitən il
Əməliyyat fəaliyyəti ilə bağlı pul axınları			
Əldə edilmiş faiz gəliri	15	1,802,579	1,585,929
Ödənilmiş faiz xərci	15	(284,986)	(139,560)
Bərpa edilmiş məbləğlər	8	604,544	513,527
Digər ödənişlər, xalis	16	9,574	4,914
Ödənilmiş əməliyyat xərcləri	17	(1,714,439)	(1,519,785)
Ödənilmiş mənfəət vergisi	18	(64,000)	(63,608)
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan xalis pul axınları		**353,272**	**381,417**
Əməliyyat aktivlərində xalis (artım)/azalma:			
Müştərilərə verilmiş kreditlər	8	(1,566,682)	(309,618)
Digər aktivlər	10	56,161	144
Əməliyyat öhdəliklərində xalis artım/(azalma):			
Digər öhdəliklər	13	(1,891)	(31,500)
Əməliyyat (fəaliyyətinə yönəldilmiş)/fəaliyyətindən daxil olan xalis pul axınları		**(1,159,140)**	**40,443**
İnvestisiya fəaliyyəti ilə bağlı pul axınları			
Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin əldə edilməsi	9	(25,304)	(57,551)
Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin satışından daxilolmalar	9	57,500	-
İnvestisiya fəaliyyətinə yönəldilmiş xalis pul axınları		**32,196**	**(57,551)**
Maliyyə fəaliyyət ilə bağlı pul axınları			
Korporativ istiqrazların emissiyası	12	-	600,000
Korporativ istiqrazların ödənilməsi	12	(250,000)	(500,000)
Müddətli borc öhdəliklərinin daxilolması	11	3,366,000	1,200,000
Müddətli borc öhdəliklərinin ödənilməsi	11	(2,127,536)	(942,442)
Maliyyə fəaliyyətindən daxil olan xalis pul axınları		**988,464**	**357,558**
Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri		(422)	(394)
Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım		**(138,902)**	**340,056**
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri	7	450,049	109,993
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri	7	**311,147**	**450,049**

28 mart 2024-cü il tarixində İdarə Heyəti adından təsdiq edilmiş və imzalanmışdır.

Aynur Əliyeva
İcraçı Direktor

Ruslan Qarayev
Maliyyə Meneceri

1 Cəmiyyət və Onun Fəaliyyəti

Bank Olmayan Kredit Təşkilatı "Viator Mikro Kredit Azərbaycan" Məhdud Masuliyyətli Cəmiyyəti (bundan sonra "Cəmiyyət") 30 dekabr 2002-ci il tarixində VÖEN1400163551 qeydiyyat nömrəsi ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Bakı şəhər Vergilər Departamentində qeydiyyatdan keçmiş Bank Olmayan Kredit Təşkilatıdır. Cəmiyyət, Azərbaycan Respublikası Mərkəzi Bankı ("ARMB") tərəfindən tənzimlənir və 136-QB saylı xüsusi lisenziya nomrəsi əsasında öz fəaliyyətini həyata keçirir. Cəmiyyətin əsas fəaliyyəti kreditlərin təqdim edilməsindən ibarətdir. Mövcud lisenziya əsasında Cəmiyyət girov qismində pul əmanətləri almaq hüququ yoxdur. Cəmiyyətin baş ofisi Azərbaycan Respublikasının Gəncə şəhərində yerləşir.

31 dekabr 2023-cü il tarixinə Cəmiyyətin 5 filialı (31 dekabr 2022-ci il: 5) mövcuddur və əməkdaşlarının orta sayı 66 nəfər (2022-ci il: 63 nəfər) təşkil edir.

Cəmiyyətin hüquqi ünvanı və fəaliyyət yeri. Cəmiyyətin hüquqi ünvanı B. Səfəroğlu küçəsi 133, Bakı, Azərbaycan Respublikasıdır. Cəmiyyətin baş ofisi N. Nərimanov prospekti 132, Gəncə Azərbaycan Respublikası ünvanında yerləşir.

31 dekabr 2023-cü və 31 dekabr 2022-ci il tarixlərinə Cəmiyyətin paylarının 100% hissəsi Viator AS (Norveç Krallığı) təşkilatına məxsusdur.

2 Cəmiyyətin Əməliyyat Mühiti

Cəmiyyət fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir.

Azərbaycanın əsas ixrac və fiskal gəlir mənbəyi kimi karbohidrogenlərdən asılılığı 2023-cü ildə də davam etmişdir. Yüksək neft və qaz qiymətləri güclü xarici mövqeni qoruyub saxlamışdır. Ticarət balansı yaxşılaşaraq 2022-ci ildə ÜDM-nin 29.8 faizinə (2021-ci ildəki 15.1 faizdən) profisitə çatmışdır və 2023-cü ildə güclü olaraq qalır.

Bununla belə, qeyri-neft-qaz sektorunun əksər sahələri 2023-cü ildə artımı davam etdirərək 6.5% səviyyəsinə çatdırmışdır. Ən yüksək artım turizmdə (32.6%) olmuşdur ki, bu da Ölkədə bu sektorun pandemiyadan sonrakı sürətli inkişafı ilə bağlıdır.

İnvestisiya artımı, əsasən azad edilmiş ərazilərin və enerji sektorunun yenidən qurulmasına yönəldilmiş dövlət sərmayəsi ilə dəstəklənərək güclü olaraq qalmışdır. Əsasən dövlət sektorunun investisiyaları hesabına idxal 29 faiz artaraq, 2023-cü ilin birinci yarısında ticarət profisiti ÜDM-nin 27.5 faizini təşkil etmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Bankı ("ARMB") 2023-cü ildə də inflyasiyaya qarşı pul siyasəti səylərini davam etdirmişdir. 2022-ci ilin dekabrında kəskin artaraq 14.4 faizə çatan inflyasiya ərzaq, qeyri-ərzaq və xidmətlərin qiymətlərində geniş əsaslı azalma nəticəsində 2023-cü ilin oktyabr ayında 3.9 faizə enmişdir. Ümumilikdə inflyasiya 2022-ci ilin dekabrında 14 faizdən 2023-cü ilin oktyabrında 3.8 faizə enmişdir.

İnflyasiyanın azalması və müsbət real faiz dərəcəsini nəzərə alaraq, ARMB 2021-ci ilin ortalarından 2023-cü ilin may ayına qədər 9 faizə yüksəldilmiş uçot faiz dərəcəsini 2023-cü ilin noyabr ayında 50 bənd azaldaraq 8.5 faizə endirmişdir.

ARMB həmçinin bank sektorundan artıq likvidliyi aradan qaldırmaq üçün ehtiyat tələblərini əhəmiyyətli dərəcədə artırmışdır.

2022-ci ilin avqust ayından 2023-cü ilin avqust ayınadək ARMB milli və xarici valyutalarda məcburi ehtiyatları artırmışdır.

2023-cü ildə Azərbaycanın kredit reytinqi "Standard & Poor's" agentliyi tərəfindən "sabit" proqnozla "BB+", "Moody's" agentliyi tərəfindən sabit proqnozla "Ba1" səviyyəsində və Fitch Ratings agentliyi tərəfindən müsbət proqnozla "BB+" səviyyəsində olmuşdur.

2 Cəmiyyətin Əməliyyat Mühiti (davamı)

Ümumilikdə, 2023-cü ildə Azərbaycan iqtisadiyyatı qlobal geosiyasi və geoiqtisadi risklərin yaratdığı qeyri-müəyyənliklər, zəif qlobal iqtisadi aktivlik, enerji daşıyıcılarının qiymətlərindəki dəyişkənlik, o cümlədən yüksək inflyasiya təzyiqləri kimi risklərlə üzləşmişdir. Ukrayna və Qəzzada hərbi əməliyyatların intensivləşməsi, karbohidrogen qiymətlərinin və tələbatının yüksəlməsi fonunda, bir tərəfdən ixracın və fiskal gəlirlərin artmasına əlverişli şərait, digər tərəfdən isə ərzaq qiymətlərinin yüksəlməsi fonunda, ərzaq təhlükəsizliyi və inflyasiya riski yaradır. Əmtəə qiymətlərinin dəyişkənliyi də oxşar risklər yaradır. Bununla belə, qlobal geosiyasi və geoiqtisadi vəziyyətlə bağlı qeyri-müəyyənliklər, yüksək qlobal inflyasiya səviyyəsi risk olaraq qalsa da, xarici ticarət profisiti və strateji valyuta ehtiyatlarının artması makroiqtisadi sabitliyi qorumağa imkan verir.

Cəmiyyətin rəhbərliyi makro iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və yaxın gələcəkdə Cəmiyyətin strategiyasının dayanıqlı inkişafını təmin etmək üçün zəruri hesab etdiyi qabaqlayıcı tədbirlər görür.

Buna baxmayaraq, mövcud iqtisadi vəziyyətin gələcək təsirini qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi

Maliyyə Hesabatlarının tərtib edilməsinin əsas prinsipləri. Hazırkı maliyyə hesabatları (bundan sonra "maliyyə hesabatları") Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmışdır. Hazırkı maliyyə hesabatlarında hesabat tarixi 31 dekabr tarixidir. Hazırkı maliyyə hesabatları, başqa cür qeyd edilmədiyi halda, tarixi dəyər prinsipi əsasında hazırlanmışdır.

Təqdimat valyutası. Hazırkı maliyyə hesabatlarında, başqa cür qeyd edilmədiyi halda, bütün məbləğlər Cəmiyyətin təqdimat və funksional valyutası olan Azərbaycan manatı ("AZN") ilə ifadə edilmişdir. Bundan əlavə, uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini irəli sürməlidir.

Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin maliyyə hesabatlarının hazırlanması üçün ehtimal və təxminlərin əhəmiyyətli olduğu sahələr 4 saylı Qeyddə açıqlanır.

Maliyyə vəziyyəti haqqında hesabatdakı maddələrin likvidlik ardıcıllığı ilə təqdim edilməsi. Cəmiyyət üçün dəqiq müəyyən edilə bilən əməliyyat dövrü olmadığına görə o, cari və uzunmüddətli aktiv və öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatda ayrıca göstərmir. Bunun əvəzində maliyyə aktiv və öhdəliklərin gözlənilən ödəmə müddətlərinə görə təhlili 21 saylı Qeyddə təqdim olunur.

COVİD-19 pandemiyasının təsiri. Cəmiyyət pandemiyanın və dəyişən mikro və makro iqtisadi şərtlərin onun fəaliyyətinə, maliyyə vəziyyətinə və maliyyə nəticələrinə təsirlərini qiymətləndirməyə davam edir.

Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları. Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır. Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir:

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

- 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir;
- 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir; və
- 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir).

Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya olunmuş dəyər (AC) əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir. Hesablanmış faizlərə ilkin tanınma zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz dərəcəsi metodundan istifadə etməklə ödənilməli məbləğ üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir.

Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (o cümlədən təqdim olunma zamanı təxirə salınmış komissiyalar, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərində əks olunur.

Effektiv faiz metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi gələcək pul ödənişləri və ya daxilolmalarını (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin fəaliyyət müddəti və ya daha qısa müddət ərzində maliyyə alətinin ümumi balans dəyərinə diskontlaşdıran dərəcədir.

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə, kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Belə mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

Maliyyə alətləri – ilkin tanınma. Bütün maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiqlənir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə təsdiqlənir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("standart şərtlər" əsasında alış və satışlar), Cəmiyyətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Alış üzrə bütün digər əməliyyatlar Cəmiyyətin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduğu halda tanınır.

Maliyyə aktivləri – təsniflaşdırma və sonrakı qiymətləndirmə

Qiymətləndirmə kateqoriyaları. Cəmiyyət maliyyə aktivlərini amortizasiya olunmuş dəyərlə təsniflaşdırır və ölçür. Borc maliyyə aktivlərinin təsniflaşdırılması və sonrakı dövrdə ölçülməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Cəmiyyətin biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

Biznes model. Biznes model Cəmiyyətin nağd pul axınları əldə etməsi məqsədilə portfelin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir və Cəmiyyətin məqsədinin: (i) aktivlərdən yalnız müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi ("müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması") və ya (ii) müqavilədə nəzərdə tutulan və aktivlərin satışından yaranan nağd pul axınlarının əldə edilməsi ("müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılması") olub-olmadığını müəyyən edir, (i) və (ii) bəndlər tətbiq edilmədikdə, maliyyə aktivləri "digər" biznes modellərə aid edilir və ədalətli dəyəri mənfəət və ya zərərdə tanınan ("FVTPL") aktivlər kateqoriyasında ölçülür.

Pul axınlarının xüsusiyyətləri. Biznes model müqavilə üzrə pul axınlarının əldə edilməsi və ya müqavilə üzrə pul axınlarının əldə edilməsini və maliyyə aktivlərinin satılması üçün saxlanılmasını nəzərdə tutduqda, Cəmiyyət pul axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (SPPI təhlili).

Yenidən təsniflaşdırılma. Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə, bütün maliyyə alətləri yenidən təsniflaşdırılır. Aktivlərin yenidən təsniflaşdırılması perspektiv qaydada - biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Cəmiyyət cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və maliyyə aktivlərini yenidən təsniflaşdırmamışdır.

Maliyyə aktivlərinin dəyərsizləşməsi. Cəmiyyət hər bir hesabat tarixində amortizasiya olunmuş dəyərlə ölçülmüş borc alətləri üzrə gözlənilən kredit zərərlərini (GKZ) qiymətləndirir və kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatı tanıyır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat. Amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri gözlənilən kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.

Cəmiyyət maliyyə aktivlərinin ilkin tanınmasından etibarən kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanaraq üç mərhələli dəyərsizləşmə modeli tətbiq edir. İlkin tanınma zamanı dəyərsizləşməmiş maliyyə aləti 1-ci Mərhələyə təsniflaşdırılır. 1-ci Mərhələdə maliyyə aktivləri üzrə GKZ növbəti 12 ay ərzində və ya müqavilədə nəzərdə tutulan ödəniş tarixinə qədər (12 ay bitənə qədər) baş verə bilən defolt hadisələri nəticəsində yaranmış bütöv müddət üçün GKZ ("12 aylıq GKZ") məbləğində qiymətləndirilir. Cəmiyyət ilkin tanınma vaxtından etibarən kredit riskində əhəmiyyətli dərəcədə artımın ("SICR") baş verdiyini müəyyən edərsə, aktiv 2-ci Mərhələyə köçürülür və həmin aktiv üzrə GKZ bütöv müddət üçün GKZ əsasında, yəni müqavilədə göstərilən ödəmə tarixinə qədər, lakin gözlənilən hər hansı qabaqcadan ödənişləri nəzərə almaqla ("bütöv müddət üçün GKZ") qiymətləndirilir. Kredit riskində əhəmiyyətli dərəcədə artımın baş verməsinin Cəmiyyət tərəfindən müəyyən edilməsi qaydası 21 saylı Qeyddə təqdim edilir. Cəmiyyət maliyyə aktivinin dəyərsizləşməsini müəyyən edərsə aktiv 3-cü Mərhələyə köçürülür və həmin aktiv üzrə GKZ bütöv müddət üçün GKZ kimi qiymətləndirilir. Dəyərsizləşmiş aktivlərin və defolt hadisəsinin Cəmiyyət tərəfindən müəyyən edilməsi qaydası 21 saylı Qeyddə izah edilir.

Maliyyə aktivlərinin silinməsi. Maliyyə aktivlərini bərpa etmək üçün Cəmiyyətin bütün praktiki imkanları tükəndikdə və Cəmiyyət belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Aktivlərin silinməsi tanınmanın dayandırılmasını əks etdirir.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Cəmiyyət müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər.

Maliyyə aktivlərinin tanınmasının dayandırılması. Cəmiyyət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Cəmiyyət maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

Maliyyə aktivlərinin modifikasiyası. Cəmiyyət bəzən maliyyə aktivləri üzrə müqavilə şərtlərinə yenidən baxır və ya onları dəyişdirir. Mümkün olduğu hallarda, Cəmiyyət girovu reallaşdırmaq əvəzinə kreditin prolonqasiya edilməsinə səy göstərir. Belə saylara ödəmə şərtlərinin dəyişdirilməsi və ya yeni kredit sazişinin imzalanması daxildir.

Şərtlər yenidən razılaşdırıldıqdan sonra bu cür kreditlər artıq gecikmiş sayılmır. Rəhbərlik prolonqasiya edilmiş kreditlər üzrə bütün şərtlərin yerinə yetirildiyinə və gələcək ödənişlərin icra olunacağına əmin olmaq məqsədilə həmin kreditləri davamlı olaraq təhlil edir. Bu cür kreditlər üçün onların ilkin, yaxud cari effektiv faiz dərəcəsi tətbiq edilməklə hesablanmış fərdi və ya kollektiv şəkildə dəyərsizləşmə üzrə qiymətləndirmə davam etdirilir.

Maliyyə öhdəlikləri – qiymətləndirilmə kateqoriyaları. Maliyyə öhdəlikləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür.

Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması. Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

Pul vəsaitləri və onların ekvivalentləri. Pul vəsaitləri və onların ekvivalentlərinə müxbir hesablar üzrə məhdudiyyət qoyulmamış vəsaitlər daxildir. Verilmə tarixində istifadəsinə üç aydan çox müddətə məhdudiyyət qoyulmuş vəsaitlər maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir.

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı səbəblərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) müqavilə üzrə nağd pul axınlarını əldə etmək məqsədilə saxlanılır və həmin nağd pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ("SPPI") ibarətdir, və (ii) FVTPL kateqoriyasında qiymətləndirilmir.

Müştərilərə verilmiş kreditlər. Müştərilərə verilmiş kreditlər müştərinin kreditini almaq və ya müştəriyə kredit vermək məqsədilə Cəmiyyət tərəfindən müştərilərə avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Biznes model və pul axınlarının xüsusiyyətini nəzərə alaraq, Cəmiyyət müştərilərə verilmiş kreditləri amortizasiya olunmuş dəyərlə təsniflaşdırır.

Dəyərsizləşmə üzrə ehtiyatlar gözlənilən kredit zərərləri üzrə proqnoz modellərə əsasən müəyyən edilir. GKZ-nin qiymətləndirilməsində istifadə edilən ilkin məlumatlar, fərziyyələr və hesablama üsulları haqqında məlumat 21 saylı Qeyddə göstərilir.

Əmlak və avadanlıqlar. Əmlak və avadanlıqlar hər hansı yığılmış amortizasiya və ehtiyac yaranarsa, dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla ilkin dəyərdə uçota alınır.

Kiçik həcmli təmir və xidmət xərcləri çəkildiyi dövrdə xərcə silinir. Əmlak və avadanlıqların əsas hissələrinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda əmlak və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Aktivin bərpa edilə bilən dəyəri onun satışı üzrə məsrəflər çıxılmaqla, ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Aktivin balans dəyəri onun bərpa edilə bilən dəyərinə qədər azaldılır və dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə tanınır. Aktivin istifadə dəyərini və ya satış üzrə məsrəflər çıxılmaqla ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə, əvvəlki illərdə tanınmış dəyərsizləşmə zərəri bərpa edilir. Əmlak və avadanlıqların silinməsindən yaranan mənfəət və ya zərər, gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və il üzrə mənfəət və ya zərərə daxil edilir (sair əməliyyat gəlirləri və ya xərclərinin tərkibində).

Köhnəlmə. Köhnəlmənin hesablanması aktiv istifadə üçün hazır olduğu tarixdən başlanır. Torpaq və başa çatdırılmamış tikililər üçün köhnəlmə hesablanmır. Əmlak və avadanlıqların digər komponentləri üzrə köhnəlmə düz xətt metoduna əsasən aşağıdakı ehtimal edilən illik dərəcələr ilə hesablanır:

	İllik dərəcələr
Binalar	7%
Nəqliyyat vasitələri	20%
Kompüterlər və rabitə avadanlığı	33%
Mebel və qurğular	20%
Digər	25%

Əmlak, tikili və avadanlığın faydalı istifadə müddəti hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda onların istifadə müddətlərindəki dəyişikliklər sonrakı dövrdən etibarən uçota alınır.

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Cəmiyyətin həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir.

Əgər Cəmiyyət aktivlərini fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözləyərsə və əlavə qalıq dəyərinin mövcud olmadığı nəzərdə tutulursa, aktivin qalıq dəyəri sıfra bərabər olur.

Aktivlərin qalıq dəyəri lazım olduqda hər bir hesabat tarixində nəzərdən keçirilir və dəqiqləşdirilir.

Qeyri-maddi aktivlər. Cəmiyyətin qeyri-maddi aktivləri müəyyən edilmiş faydalı istifadə müddətinə malik olub əsasən kapitallaşdırılmış proqram təminatından ibarətdir.

Proqram təminatı üzrə əldə edilmiş lisenziyalar onların alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır. Proqram təminatı ilə əlaqədar bütün digər xərclər çəkildiyi zaman xərcə silinir. Kapitallaşdırılmış proqram təminatı təxmin edilən faydalı istifadə müddəti (5-10 il) ərzində düz xətt metoduna əsasən amortizasiya olunur.

İcarələr. Müqavilənin başlanğıcında Cəmiyyət müqavilənin özünün və ya onun tərkibində icarə olub-olmadığını yəni, müqavilənin özündə müəyyən edilmiş aktivin istifadəsi üzrə nəzarət hüququnun, ödəniş qarşılığında müəyyən vaxt müddəti üçün ötürülməsini nəzərdə tutub-tutmadığını qiymətləndirir.

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə Cəmiyyətin 16 saylı MHBS-in icbari şəkildə tətbiqinə məruz qala bilən icarə müqavilələri olmamışdır. Buna görə də, rəhbərlik bütün icarə müqavilələrini 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərində bitən illər üzrə əməliyyat lizinqi kimi tanımışdır.

Avans ödənişləri. Aktivi əldə etmək üçün avans ödənişləri Cəmiyyət bu aktiv üzərində nəzarət əldə etdikdə və həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Cəmiyyətə daxil olacağı ehtimal edildikdə aktivin qalıq dəyərinə köçürülür. Digər avans ödənişləri bu ödənişlərin aid olduğu mal və xidmətlər əldə edildikdə mənfəət və ya zərərə silinir.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Əgər avans ödənişinin aid olduğu aktivlər, mallar, yaxud xidmətlərin alda edilməməsi gözlənilirsə, həmin avans ödənişinin qalıq dəyəri müvafiq şəkildə balansdan silinir və il/dövr üzrə mənfəət və ya zərərdə dəyərsizləşmə üzrə ehtiyat tanınır. Cəmiyyətin avans ödənişlərinin müddəti bir ildən azdır və maliyyə vəziyyəti haqqında hesabatda digər aktivlərin tərkibində tanınmışdır.

Müddətli borc öhdəlikləri. Müddətli borc öhdəliklərinə rezident və qeyri-rezident banklardan, eləcə də digər maliyyə institutlarından müəyyən edilmiş ödəmə müddətləri və sabit faiz dərəcəsi ilə cəlb edilmiş kreditlər daxildir. Müddətli borc öhdəlikləri amortizasiya edilmiş dəyərlə qeydə alınır.

Buraxılmış borc qiymətli kağızları. Buraxılmış borc qiymətli kağızları Cəmiyyət tərəfindən emissiya edilmiş istiqrazlardan ibarətdir. Buraxılmış borc qiymətli kağızları amortizasiya olunmuş dəyərlə uçota alınır.

Nizamnamə kapitalı. Nizamnamə kapitalı səhmdar tərəfindən verilən kapitalın miqdarıdır. Cəmiyyət öz nizamnamə kapitalını qanuna uyğun olaraq səhmdarın razılığı ilə artıra və ya azalda bilər. 1 saylı Qeyddə açıqlandığı kimi, Viator AS (Norveç Krallığı) Cəmiyyətin 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixinə paylarının 100 faiz hissəsinə sahibdir.

Dividendlər. Dividendlər elan olunub təsdiqləndiyi dövrdə kapitalda qeydə alınır. Hesabat dövründən sonra, lakin maliyyə hesabatlarının təsdiqlənməsindən əvvəl elan edilmiş dividendlər haqqında məlumat "hesabat tarixindən sonrakı hadisələr" qeydində açıqlanır. Mənfəətdən dividendlər və digər ödənişlər Cəmiyyətin yerli qanunvericiliyə uyğun hazırlanmış maliyyə hesabatlarına əsasən həyata keçirilir. Azərbaycan qanunvericiliyində cari ilin xalis mənfəəti bölüşdürmənin əsası kimi müəyyən edilir.

Faiz gəlir və xərcinin uçotu. Bütün borc alətləri üzrə faiz gəlirləri və xərcləri effektiv faiz metoduna əsasən hesablama metodu ilə mənfəət və ya zərərdə qeydə alınır. Bu metoda əsasən, faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması və sövdələşmə sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar alınmış və ya ödənilmiş komissiya haqları daxildir.

Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Cəmiyyət tərəfindən alınmış komissiya haqları, Cəmiyyətin xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir.

Cəmiyyət kreditlərin verilməsi üzrə öhdəlikləri FVTPL kateqoriyasına aid olunan maliyyə öhdəlikləri kimi təsnifləşdirmir.

Faiz gəlirləri (i) dəyərsizləşmiş maliyyə aktivlərinə çevrilmiş (3-cü Mərhələ), (ii) dəyərsizləşmiş maliyyə aktivi kimi alda edilmiş aktivlər istisna olmaqla, maliyyə aktivlərinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır. Dəyərsizləşmiş aktivlər üzrə faiz gəlirini hesablayarkən dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, aktivin amortizasiya olunmuş dəyərinə effektiv faiz dərəcəsi tətbiq edilir.

Faiz xərcləri borc öhdəlikləri və buraxılmış borc qiymətli kağızları üzrə hesablanır və məcmu gəlirlər haqqında hesabatın "Faiz xərci" sətrinin tərkibində tanınır.

Əvəzləşdirmə. Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır: (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

Şərti öhdəliklər. Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onların ödənilməsi üçün ehtiyatların xərclənməsi ehtimalı az olanda, maliyyə hesabatlarında açıqlanır. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onlarla bağlı iqtisadi faydaların daxil olması ehtimal edilərdə maliyyə hesabatlarında açıqlanır.

İşçi heyəti ilə bağlı xərclər və müvafiq ayırmalar. Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

Cəmiyyətin yerli qanunvericiliyə uyğun müəyyən edilmiş haqlar üzrə ödənişlərdən başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

Mənfəət vergisi. Hazırkı maliyyə hesabatlarında mənfəət vergisi hesabat tarixinə qüvvədə olan və ya qüvvəyə minmiş müvafiq qanunvericiliyə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya sair dövrdə vergi təsiri digər məcmu gəlirlərdə və ya bilavasitə kapitalda uçota alınan əməliyyatlar istisna olmaqla, mənfəət və ya zərər kimi əks etdirilir.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə bağlı vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarında onların balans dəyəri arasında yaranan müvəqqəti fərqlər üçün tam hesablanır.

Təxirə salınmış vergi aktivi, qüvvədə olan və ya hesabat tarixinə qüvvəyə minmiş vergi dərəcələrinə (və qanunvericiliyə) əsasən hesablanır və müvafiq təxirə salınmış vergi aktivinin realizasiya ediləcəyi və ya təxirə salınmış vergi öhdəliyinin yerinə yetiriləcəyi halda tətbiq edilməsi gözlənilir.

Təxirə salınmış vergi aktiv və öhdəliklərinin əvəzləşdirilməsi cari vergi aktivləri və cari vergi öhdəliklərinin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq olduqda, eləcə də qalıqları xalis şəkildə əvəzləşdirmək niyyəti mövcud olduğu halda təxirə salınmış vergi aktiv və öhdəlikləri eyni vergi orqanı tərəfindən vergiyə cəlb edilən müəssisə və ya vergiyə cəlb edilən ayrı-ayrı müəssisələrə tətbiq edilmiş vergilərə aid olduqda həyata keçirilə bilər.

Təxirə salınmış vergi aktivləri müvəqqəti fərqlərin istifadə oluna bilməsi üçün vergiyə cəlb edilən mənfəətin əldə edilməsi ehtimalının mövcud olacağı zaman hesablanır. Təxirə salınmış mənfəət vergisi öhdəliyi, Cəmiyyətin müvəqqəti fərqlərin bərpası dövrünə nəzarət etməsi və müvəqqəti fərqlərin yaxın gələcəkdə bərpa edilməməsi ehtimal olunan hallar istisna olmaqla, vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün hesablanır.

Mənfəət və ya zərərə daxil olmayan əməliyyatlara aid təxirə salınmış vergi ya digər məcmu gəlirdə, ya da birbaşa kapitalda tanınır.

Mənfəət vergisindən başqa vergilər. Mənfəət vergisindən başqa vergilər əməliyyat xərclərinin tərkibində qeyd edilir.

Xarici valyutanın çevrilməsi. Cəmiyyətin funksional valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional valyutası və hesabat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

Monetar aktiv və öhdəliklər, Azərbaycan Respublikası Mərkəzi Bankının ("ARMB") müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən hər bir müəssisənin funksional valyutasına çevrilir.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Xarici valyuta ilə əməliyyatların həyata keçirilməsi və ilin sonuna ARMB-nin rəsmi valyuta məzənnəsi ilə xarici valyutada ifadə olunan monetar aktiv və öhdəliklərin hər bir müəssisənin funksional valyutasına çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərərə aid edilir.

Xarici məzənnə fərqlərindən yaranan bütün gəlir və zərərlər mənfəət və ya zərər hesabatında "Xarici valyuta mübadiləsindən yaranan xalis zərər" maddəsində təqdim edilmişdir. İlin sonuna qüvvədə olan valyuta çevrilmələri tarixi dəyərdə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir.

Kapital investisiyaları daxil olmaqla, xarici valyutada ədalətli dəyərdə qiymətləndirilmiş qeyri-monetar maddələr ədalətli dəyərin müəyyən edildiy tarixdə qüvvədə olan məzənnə ilə çevrilirlər.

Xarici valyutada ədalətli dəyərdə qiymətləndirilmiş qeyri-monetar maddələr üzrə məzənnə dəyişikliyinin təsiri ədalətli dəyərdən gəlir və ya zərərin bir hissəsi kimi qeyd edilir.

İstifadə edilmiş qüvvədə olan valyuta məzənnələri aşağıdakılardır:

	Aşağıdakı tarixdə bitən il üzrə	
	31 dekabr 2023-cü il	**31 dekabr 2022-ci il**
İlin sonuna məzənnə (AZN/USD)	1.7000	1.7000
İlin sonuna məzənnə (AZN/EUR)	1.8766	1.8114

4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr

Növbəti maliyyə ilində aktiv və öhdəliklərin balans dəyərlərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan əhəmiyyətli risk yaradan, hesabat tarixində gələcəklə bağlı əsas fərziyyələr və qiymətləndirmə qeyri-müəyyənliyinin digər əsas mənbələri ilə əlaqədar başlıca ehtimallar aşağıda müzakirə olunur.

Cəmiyyət qiymətləndirmə və fərziyyələrini maliyyə hesabatları hazırlandığı zaman mövcud olan parametrlərə əsaslandırmış və maliyyə hesabatlarında tanınmış məbləğlər müəyyən edildiyi zaman edilmiş qiymətləndirmə və fərziyyələri istifadə etmişdir. Lakin mövcud olan vəziyyət və gələcək dəyişikliklər haqqında fərziyyələr bazarda baş verən dəyişikliklərdən və ya Cəmiyyətin nəzarəti altında olmayan vəziyyətlərdən asılı olaraq dəyişə bilər. Həmin dəyişikliklər baş verdiyi zaman rəhbərliyin fərziyyələrində öz əksini tapır.

Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti. Rəhbərlik, əmlak, avadanlıqların və qeyri-maddi aktivlərin təxmin edilən faydalı istifadə müddətini və müvafiq köhnəlmə xərclərini müəyyən edir.

Bu təxminlər, Cəmiyyətin həmin aktivlər üzrə iqtisadi səmərə əldə etməyi planlaşdırdığı dövrə əsaslanır. Faydalı istifadə müddəti əvvəlki illərdə təxmin edilmiş faydalı müddətdən aşağı olanda rəhbərlik köhnəlmə xərcini artırır. Faydalı istifadə müddətinə ən azı hər maliyyə ilinin sonunda yenidən baxılır.

Yuxarıda qeyd olunan şərtlərin və ya təxminlərin hər hansı birində dəyişiklik olarsa, bu, gələcəkdə köhnəlmə dərəcələri üzrə düzəlişlərin aparılmasına gətirib çıxara bilər.

Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi. Bərpa edilə bilinməyən aktivlərin balans dəyərini əks etdirən hadisələr və ya şəraitlərə əsasən rəhbərlik hər bir hesabat tarixində bütün qeyri-maliyyə aktivlərinin mümkün dəyərsizləşməsi üzrə hər hansı göstəricilərin olub-olmamasını müəyyən edir. Bu cür göstəricilərə aşağıdakılar daxildir: Cəmiyyətin biznes planlarında baş verən dəyişikliklər, qeyri-rentabelli fəaliyyətə gətirib çıxaran əmtəə qiymətlərində dəyişikliklər. Cəmiyyətdə qeyri-müəyyən faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər mövcud deyildir.

4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr (davamı)

Digər qeyri-maliyyə aktivləri bərpa edilə bilməyən balans dəyərinə dair göstəricilərin mövcud olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır.

Dəyərsizləşmə, aktivin balans dəyəri onun bərpa oluna bilən dəyərindən artıq olduqda yaranır. Bərpa oluna bilən dəyər satış xərclərini çıxmaqla ədalətli dəyərin və ya istifadə dəyərinin daha yüksək olanı hesab olunur.

Satış xərclərini çıxmaqla ədalətli dəyər, qeyri-kommersiya əməliyyatlarında oxşar aktivlərin mütləq satışı əməliyyatlarından əldə edilən məlumatlar və ya əlavə satış xərclərini çıxmaqla müşahidə olunan bazar qiymətləri əsasında hesablanır. İstifadə dəyəri diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli ilə hesablanır.

Maliyyə aktivlərinin gözlənilən kredit zərəri üzrə ehtiyat

Müştərilərə verilmiş kreditlər üzrə GKZ haqqında məlumat 8 saylı *Müştərilərə Verilmiş Kreditlər* Qeydində açıqlanır.

Gözlənilən kredit zərərlərinin (GKZ) ölçülməsi aşağıdakıları əks etdirir:

- Bir sıra mümkün nəticələrin qiymətləndirilməsi ilə təyin olunan qərəzsiz və ehtimal ağırlığında bir məbləğ;
- Pulun vaxt dəyəri; və
- Keçmiş hadisələr, mövcud şərtlər və gələcək iqtisadi şərtlərin proqnozları barədə məqbul və dəstəklənən məlumat.

GKZ-ni müəyyənləşdirmək üçün gələcək pul axınlarının və girov dəyərlərinin məbləği və vaxtının təxmin edilməsi və kredit riskində əhəmiyyətli dərəcədə artımın qiymətləndirilməsi mühakimə tələb edir. Cəmiyyətin GKZ hesablamaları dəyişkən giriş seçimi olan kompleks modellərin nəticələridir. Modellərin elementləri əhəmiyyətli uçot mülahizələri hesab edilir və təxminlərə aşağıdakılar daxildir:

- Fərdi dərəcələr üçün PD təyin edən Cəmiyyətin daxili kredit retyinq modeli;
- Kredit riskində əhəmiyyətli artımın olub-olmadığının və olduğu halda maliyyə aktivləri üçün ehtiyatların bütöv müddət üçün və keyfiyyət əsaslı qiymətləndirmə əsasında müəyyən edilməsi üçün Cəmiyyətin tətbiq etdiyi meyarlar;
- GKZ kollektiv əsasda qiymətləndirildiyi halda, maliyyə aktivlərinin bölgüsü;
- Müxtəlif formullar və giriş seçimi daxil olmaqla, GKZ modellərinin inkişafı.

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə müştərilərə verilmiş kreditlər üzrə yaradılmış dəyərsizləşmə ehtiyatının məbləği müvafiq olaraq 375,243 AZN və 374,934 AZN təşkil etmişdir.

Maliyyə hesabatlarına dərc edildikdən sonra əlavələr. Maliyyə hesabatlarına dərc edildikdən sonra hər hansı dəyişikliklərin edilməsi üçün bu maliyyə hesabatlarının dərc edilməsini rəsmiləşdirən Cəmiyyətin rəhbərliyinin təsdiqi tələb olunur.

Cəmiyyət növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitdə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar mülahizələr və ehtimallar irəli sürür.

5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara Dair Şərhlərin Tətbiqi

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası ("BMUSŞ") və BMUSŞ-nın Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi ("BMHŞK") tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2023-cü il tarixində bitən il üzrə hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara Dair Şərhlərin Tətbiqi (davamı)

Aşağıdakı düzəlişlər 1 yanvar 2023-cü il tarixindən və ya ondan sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir.

MHBS 17 Sığorta Müqavilələri (2020-ci ilin iyun ayında və 2021-ci ilin dekabr ayında 17 saylı MHBS-ə edilmiş düzəlişlər daxil olmaqla). MHBS 17 sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir və MHBS 4 *Sığorta Müqavilələri* standartını əvəz edir. MHBS 17 dəyişən ödəniş yanaşması kimi təsvir edilən birbaşa iştirak xüsusiyyətlərinə malik sığorta müqavilələri üçün dəyişdirilmiş ümumi modeli nəzərdə tutur. Mükafatın bölüşdürülməsi yanaşmasından istifadə etməklə qalan təminat üçün öhdəliyin ölçülməsi yolu ilə müəyyən meyarlara cavab verildiyi halda, ümumi model sadələşdirilir. Ümumi model gələcək pul vəsaitlərinin hərəkətinin məbləğini, vaxtını və qeyri-müəyyənliyini qiymətləndirmək üçün cari fərziyyələrdən istifadə edir və bu qeyri-müəyyənliyin dəyərini detallı şəkildə ölçür. O, bazar faiz dərəcələrini və sığortalıların seçim və zəmanətlərinin təsirini nəzərə alır. Cəmiyyətin 17 saylı MHBS-də göstərilən sığorta müqaviləsi anlayışına uyğun gələn hər hansı müqaviləsi mövcud deyil.

MUBS 1 Maliyyə Hesabatlarının Təqdimatı və MHBS Təcrübə Bəyanatı 2 Əhəmiyyətlilik üzrə Fərziyələrin İrəli Sürülməsi – Uçot Siyasətinin Açıqlanması üzrə düzəlişlər. Düzəlişlər uçot siyasətinin açıqlanması ilə bağlı 1 saylı MUBS-un tələblərini dəyişir. Düzəlişlər "əsas uçot prinsipləri" termininin bütün formalarını "əhəmiyyətli uçot prinsipləri məlumatı" termini ilə əvəz edir. Uçot siyasəti haqqında məlumat müəssisənin maliyyə hesabatlarına daxil edilmiş digər məlumatlarla birlikdə nəzərdən keçirildiyi halda, ümumi təyinatlı maliyyə hesabatlarının əsas istifadəçilərinin həmin maliyyə hesabatları əsasında qəbul etdikləri qərarlara təsir göstərməsi əsaslı şəkildə gözlənilsə, əhəmiyyətli hesab edilir. Həmçinin 1 saylı MUBS-un köməkçi bəndləri əhəmiyyətli olmayan əməliyyatlar, digər hadisələr və ya şərtlərlə bağlı uçot siyasəti məlumatlarının əhəmiyyətsiz olduğunu və açıqlanmasına ehtiyac olmadığını aydınlaşdırmaq məqsədilə dəyişdirilir. Mühasibat uçotu siyasəti ilə bağlı məlumatlar, hətta məbləğlər əhəmiyyətsiz olsa belə, əlaqəli əməliyyatların, digər hadisələrin və ya şərtlərin xarakterinə görə əhəmiyyətli ola bilər. Bununla belə, əhəmiyyətli əməliyyatlar, digər hadisələr və ya şərtlərlə bağlı bütün uçot siyasəti məlumatları əhəmiyyətli olmaya bilər.

MUBS 8 Uçot Siyasəti, Uçot Təxminləri və Təhriflərində Dəyişikliklər – Uçot Təxminləri Anlayışı üzrə düzəlişlər. Düzəlişlər uçot təxminlərində dəyişiklik anlayışını uçot təxminləri anlayışı ilə əvəz edir. Yeni anlayışa əsasən, uçot təxminləri "maliyyə hesabatlarında ölçülmə qeyri-müəyyənliyinə məruz qalan pul məbləğləridir". Uçot təxminlərində dəyişiklik anlayışı silinmişdir. Bu düzəlişin Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsiri olmamışdır.

MUBS 12 Mənfəət Vergisi – Vahid Əməliyyatdan Yaranan Aktiv və Öhdəliklərlə bağlı Təxirə Salınmış Vergi üzrə düzəlişlər. Düzəlişlər ilkin tanınma üzrə azadolma ilə bağlı əlavə bir istisna təqdim edir. Düzəlişlərə əsasən, müəssisə bərabər vergi tutulan və çıxılan müvəqqəti fərqlərin yaranmasına səbəb olan əməliyyatlar üçün ilkin tanınma üzrə azadolmanı tətbiq etmir. Tətbiq olunan vergi qanunvericiliyindən asılı olaraq, müəssisələrin birləşməsi olmayan, nə uçot mənfəətinə, nə də vergi tutulan mənfəətə təsir göstərməyən əməliyyatda aktiv və öhdəliyin ilkin tanınması zamanı bərabər vergi tutulan və çıxılan müvəqqəti fərqlər yarana bilər. 12 saylı MUBS-a düzəlişlərin tətbiqindən sonra müəssisənin, 12 saylı MUBS-da bərpa olunma meyarlarına uyğun gələn hər hansı təxirə salınmış vergi aktivinin tanınması ilə, təxirə salınmış vergi aktivi və öhdəliyini tanıması tələb olunur. Bu düzəlişin Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsiri olmamışdır.

MUBS 12 Mənfəət Vergisi – Beynəlxalq Vergi İslahatı – İkinci Sütun Model Qaydaları üzrə düzəlişlər. 12 saylı MUBS-un əhatə dairəsinə dəyişiklik edir. Belə ki, bu standart İƏİT tərəfindən dərc edilmiş İkinci Sütun modeli qaydalarını tətbiq etmək üçün qüvvəyə minmiş və ya mahiyyətcə qüvvəyə minmiş vergi qanunvericiliyindən irəli gələn gəlir vergilərinə, o cümlədən həmin qaydalarda təsvir edilmiş yerli minimum əlavə vergilərin tətbiqini nəzərdə tutan vergi qanunvercilliyinə şamil edilir. Düzəlişlər 12 saylı MUBS-da təxirə salınmış vergilər üzrə uçot tələblərinə müvəqqəti istisna təqdim edir ki, müəssisə İkinci Sütun mənfəət vergiləri ilə bağlı təxirə salınmış vergi aktivləri və öhdəlikləri haqqında məlumatı nə tanısın, nə də açıqlasın. Düzəlişlərin tətbiqindən sonra Cəmiyyət bu istisnanı tətbiq etdiyini açıqlamalı və İkinci Sütun gəlir vergiləri ilə bağlı cari vergi xərcini (gəlirini) ayrıca açıqlamalıdır. Bu düzəlişin Cəmiyyətin maliyyə hesabatlarına təsiri olmamışdır.

6 Yeni Uçot Qaydaları

Maliyyə hesabatlarının təsdiq olunduğu tarixdə, qüvvədə olma tarixindən əvvəl Cəmiyyətin tərəfindən qəbul edilmiş Standartlar və Şərhlər istisna olmaqla, aşağıdakı Şərhlər dərc edilmiş, lakin hazırda qəbul edilməmişdir.

MHBS 10 Konsolidə Edilmiş Maliyyə Hesabatları və MUBS 28 Asılı və Birgə Müəssisələrə İnvestisiyalar – İnvestor və Onun Asılı və ya Birgə Müəssisəsi Arasında Aktivlərin Satışı və ya Əvəzsiz Təqdim Edilməsi üzrə düzəlişlər. 10 saylı MHBS və 28 saylı MUBS-a düzəlişlər investorla onun asılı və ya birgə müəssisəsi arasında aktivlərin satışı və ya əvəzsiz təqdim edilməsini nəzərdə tutan vəziyyətləri əhatə edir. Konkret olaraq, düzəlişlər göstərir ki, asılı müəssisə və ya iştirak payı metodundan istifadə etməklə uçota alınan birgə müəssisə ilə əməliyyatda biznesi ehtiva etməyən törəmə müəssisə üzərində nəzarətin itirilməsi nəticəsində yaranan gəlir və ya zərərlər əsas müəssisənin mənfəət və ya zərərində yalnız əlaqəli olmayan investorların həmin asılı və ya birgə müəssisədəki payları həcmində tanınır. Eyni zamanda hər hansı keçmiş törəmə müəssisədə (asılı müəssisə və ya iştirak payı metodundan istifadə etməklə uçota alınan birgə müəssisəyə çevrilmiş) saxlanılan investisiyaların yenidən qiymətləndirilərək ədalətli dəyərə gətirilməsi nəticəsində yaranan mənfəət və zərərlər keçmiş əsas müəssisənin mənfəət və ya zərərində yalnız yeni asılı və ya birgə müəssisədə əlaqəli olmayan investorların paylarının həcmində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi MUBSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin daha erkən tətbiqinə icazə verilir.

MUBS 1 Maliyyə Hesabatlarının Təqdimatı – Öhdəliklərin Qısa və Uzunmüddətli Təsnifatı üzrə düzəlişlər. 2020-ci ilin yanvar ayında dərc edilmiş 1 saylı MUBS-a bu düzəlişlər öhdəliklərin yalnız maliyyə vəziyyəti haqqında hesabatda qısamüddətli və ya uzunmüddətli kimi təqdim edilməsinə təsir göstərir və hər hansı aktivin, öhdəliyin, gəlirin və ya xərclərin tanınmasının məbləği və ya vaxtına, yaxud həmin maddələr barəsində açıqlanan məlumatlara dəyişikliyi nəzərdə tutmur.

Dəyişikliklər öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirilməsinin hesabat dövrünün sonunda mövcud olan hüquqlara əsaslandığını aydınlaşdırır, təsnifata müəssisənin öhdəliklərin ödənilməsini təxirə salmaq hüququndan istifadə edib-etməyəcəyinə dair gözləntilərin təsir etmədiyini göstərir, hüquqların hesabat dövrünün sonunda şərtlərə əməl edildiyi təqdirdə mövcud olduğunu izah edir və öhdəliyin ödənilməsinin pul vəsaitlərinin, kapital alətlərinin, digər aktivlərin və ya xidmətlərin qarşı tərəfə ötürülməsini nəzərdə tutduğunu aydınlaşdırmaq üçün "öhdəliyin ödənilməsi" anlayışını təqdim edir.

Düzəlişlər 1 yanvar 2024-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün retrospektiv qaydada tətbiq edilir, erkən tətbiqə icazə verilir. MUBSŞ qüvvəyə minmə tarixini 1 saylı MUBS-a 2022-ci il düzəlişləri ilə uyğunlaşdırmışdır. Əgər müəssisə 2020-ci il düzəlişlərini daha erkən dövr üçün tətbiq edərsə, o, həmçinin 2022-ci il düzəlişlərini erkən tətbiq etməlidir.

MUBS 1 Maliyyə Hesabatlarının Təqdimatı – Şərtli Uzunmüddətli Öhdəliklər üzrə düzəlişlər. Düzəlişlər müəyyən edir ki, yalnız müəssisənin hesabat dövrünün sonuna qədər və ya ondan əvvəl riayət etməli olduğu şərtlər müəssisənin hesabat tarixindən sonra ən azı on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq hüququna təsir göstərir (və buna görə də öhdəliyin qısamüddətli və uzunmüddətli kimi təsnifatının qiymətləndirilməsi zamanı nəzərə alınmalıdır). Bu cür şərtlər, hətta müqavilə şərtinə uyğunluq yalnız hesabat tarixindən sonra qiymətləndirildiyi halda (məsələn, müəssisənin hesabat tarixində maliyyə vəziyyətinə əsaslanan və yalnız hesabat tarixindən sonra uyğunluğu qiymətləndirilən müqavilə şərti) hesabat dövrünün sonunda hüququn mövcud olub-olmamasına təsir göstərir. MUBSŞ həmçinin müəyyən edir ki, əgər müəssisə yalnız hesabat dövründən sonra şərtə əməl etməlidirsə, hesabat tarixindən sonra ən azı on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq hüququ təsirə məruz qalmır. Bununla belə, əgər müəssisənin öhdəliyin ödənilməsini təxirə salmaq hüququ həmin müəssisənin hesabat dövründən sonra on iki ay müddətində şərtlərə riayət etməsi ilə əlaqələdirsə, müəssisə maliyyə hesabatlarının istifadəçilərinə öhdəliklərin on iki ay ərzində ödənilməli olması riskini anlamağa imkan verən məlumatları açıqlayır. Buraya müqavilənin şərtləri barəsində məlumat (o cümlədən, şərtlərin mahiyyəti və müəssisənin onlara nə vaxt əməl etməli olması barəsində məlumat), əlaqəli öhdəliklərin balans dəyəri və əgər varsa, müəssisənin şərtlərə əməl etməkdə çətinlik çəkə biləcəyini göstərən faktlar və hallar daxildir. Düzəlişlər 1 yanvar 2024-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün retrospektiv qaydada tətbiq edilir.

6 Yeni Uçot Qaydaları (davamı)

Düzəlişlərin daha erkən tətbiqinə icazə verilir. Müəssisə düzəlişləri daha erkən dövr üçün tətbiq edərsə, 2020-ci il düzəlişlərini də erkən tətbiq etməlidir.

MUBS 7 Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat və MHBS 7 Maliyyə Alətləri: Açıqlamalar – Təchizatçının Maliyyə Razılaşmaları üzrə düzəlişlər. Düzəlişlər 7 saylı MUBS-a açıqlama tələbini əlavə edərək göstərir ki, müəssisə təchizatçının maliyyə razılaşmaları haqqında həmin razılaşmaların müəssisənin öhdəliklərinə və pul vəsaitlərinin hərəkətinə təsirini maliyyə hesabatlarının istifadəçilərinə qiymətləndirməyə imkan verən məlumatı açıqlamalıdır. Bundan əlavə, müəssisənin likvidlik riskinin konsentrasiyasına məruz qalması haqqında məlumatı açıqlamaq tələbləri çərçivəsində nümunə kimi təchizatçının maliyyə razılaşmalarını əlavə etmək üçün MHBS 7-yə düzəliş edilmişdir. "Təchizatçının maliyyə razılaşmaları" termini müəyyən edilməmişdir. Bunun əvəzində, düzəlişlər müəssisənin məlumat verməli olduğu razılaşmanın xüsusiyyətlərini təsvir edir.

Açıqlama məqsədlərinə uyğun gəlmək üçün müəssisənin təchizatçı ilə bağlı maliyyə razılaşmaları üçün aşağıdakı ümumi məlumatı açıqlaması tələb olunacaq:

- Razılaşmaların şərtləri;
- Müəssisənin razılaşmaların bir hissəsi olan öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatda təqdim edilən qalıq dəyəri və əlaqəli sətir maddələri;
- Təchizatçıların maliyyə təminatçılarından artıq ödəniş aldığı qalıq dəyəri və əlaqəli sətir maddələri;
- Həm təchizatçının maliyyə razılaşmasının bir hissəsi olan maliyyə öhdəlikləri, həm də təchizatçının maliyyə razılaşmasının bir hissəsi olmayan müqayisə edilə bilən ticarət kreditor borcları üçün ödəmə müddətlərinin diapazonları;
- Likvidlik riski haqqında məlumat.

Müəssisənin düzəlişləri tətbiq etdiyi ilk illik hesabat dövrü üçün xüsusi keçid güzəştlərini ehtiva edən düzəlişlər 1 yanvar 2024-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün tətbiq edilir. Daha erkən tətbiqə icazə verilir.

BMHS 16 İcarələr – Satış və Geriyə İcarə Əməliyyatlarında İcarə Öhdəliyi üzrə düzəliş. 16 saylı MHBS-ə düzəlişlər satış kimi uçota alınması üçün 15 saylı MHBS-in tələblərinə cavab verən satış və geriyə icarə əməliyyatları üçün sonrakı qiymətləndirmə tələblərini əlavə edir. Bu düzəlişlər satıcı-icarəçidən "icarə ödənişləri" və ya "yenidən işlənmiş icarə ödənişləri"ni elə müəyyənləşdirməyi tələb edir ki, satıcı-icarəçi işə başlama tarixindən sonra satıcı-icarəçi tərəfindən saxlanılan istifadə hüququ ilə bağlı gəlir və ya zərəri tanımasın. Düzəlişlər icarəyə qismən və ya tam xitam verilməsi ilə bağlı satıcı-icarəçi tərəfindən tanınan gəlir və ya zərərə təsir göstərmir. Bu yeni tələblər olmadan, satıcı-icarəçi 16 saylı MHBS-dəki ümumi tələbləri tətbiq etməklə, yalnız icarə öhdəliyinin yenidən ölçülməsi (məsələn, icarə dəyişikliyindən və ya icarə müddətində dəyişiklikdən sonra) səbəbindən özündə saxladığı istifadə hüququ üzrə qazancı tanımış ola bilər. Bu, xüsusilə indeksdən və ya dərəcədən asılı olmayan dəyişən icarə ödənişlərini nəzərdə tutan geriyə icarəyə aid ola bilərdi. Düzəlişlər 1 yanvar 2024-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Daha erkən tətbiqə icazə verilir. Satıcı-icarəçi düzəlişləri daha erkən dövr üçün tətbiq etdiyi halda, bu faktı açıqlaması tələb olunur. Satıcı-icarəçi bu düzəlişləri 8 saylı MUBS-a uyğun olaraq retrospektiv qaydada, müəssisənin 16 saylı MHBS-i ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün başlanğıcı kimi müəyyən edilən ilkin tətbiq tarixindən sonra bağlanmış satış və geriyə icarə əməliyyatlarına tətbiq edir.

Yuxarıda başqa cür göstərilmədiyi halda, yeni standartlar və şərhlərin Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

7 Pul Vəsaitləri və Onların Ekvivalentləri

	31 dekabr 2023-cü il	31 dekabr 2022-ci il
AZN ilə ifadə edilmiş nağd pul vəsaitləri	2,590	3,235
USD ilə ifadə edilmiş nağd pul vəsaitləri	1,805	1,946
Cəmi nağd pul vəsaitləri	**4,395**	**5,181**
AZN ilə ifadə edilmiş müxbir hesab qalıqları	273,189	417,706
USD ilə ifadə edilmiş müxbir hesab qalıqları	33,155	26,595
EUR ilə ifadə edilmiş müxbir hesab qalıqları	408	567
Cəmi bank hesabları	**306,752**	**444,868**
Cəmi pul vəsaitləri və onların ekvivalentləri	**311,147**	**450,049**

8 Müştərilərə Verilmiş Kreditlər

Müştərilərə verilmiş kreditlər əsasən Azərbaycan Respublikası ərazisində yaşayan müştərilərə təqdim edilmişdir:

	31 dekabr 2023-cü il	31 dekabr 2022-ci il
Kənd təsərrüfatı sektoru	96,156	129,353
Ticarət sektoru	1,970,356	1,675,589
Xidmət və digər sektorlar	6,583,827	4,965,877
Cəmi müştərilərə verilmiş kreditlər (ümumi)	**8,650,339**	**6,770,819**
Çıxılsın: gözlənilən kredit zərəri üzrə ehtiyat	(375,243)	(374,934)
Cəmi müştərilərə verilmiş kreditlər (xalis)	**8,275,096**	**6,395,885**
Təxirə salınmış komissiya gəliri	(162,951)	(130,427)
Cəmi müştərilərə verilmiş kreditlər (xalis)	**8,112,145**	**6,265,458**

31 dekabr 2023-cü il tarixində bitən il üzrə ümumi qalıq dəyərində və gözlənilən kredit zərərində dəyişikliklərin təhlili aşağıdakı kimidir:

Kreditlərin ümumi qalıq dəyəri - kənd təsərrüfatı sektoru	**Mərhələ 1**	**Mərhələ 2**	**Mərhələ 3**	**Cəmi**
1 yanvar 2022-ci il tarixinə qalıq	**128,555**	**-**	**798**	**129,353**
Yeni yaranmış və ya alınmış aktivlər	143,250	-	-	143,250
Hesablanmış faizdə dəyişikliklər	(605)	-	-	(605)
Ödənilmiş aktivlər	(245,190)	-	(44,385)	(289,575)
Mərhələ 1-ə köçürmə	-	-	-	-
Mərhələ 2-yə köçürmə	-	-	-	-
Mərhələ 3-ə köçürmə	-	-	-	-
Bərpa edilmiş aktivlər	69,573	-	44,160	113,733
Silinmiş məbləğlər	-	-	-	-
31 dekabr 2022-ci il tarixinə qalıq	**95,583**	**-**	**573**	**96,156**

Gözlənilən kredit zərəri üzrə ehtiyat - kənd təsərrüfatı sektoru	**Mərhələ 1**	**Mərhələ 2**	**Mərhələ 3**	**Cəmi**
1 yanvar 2022-ci il tarixinə qalıq	**(1,056)**	**-**	**(798)**	**(1,854)**
Yeni yaranmış və ya alınmış aktivlər	(5,683)	-	-	(5,683)
Hesablanmış faizdə dəyişikliklər	(30)	-	-	(30)
Diskontun qaytarılması	(19)	-	-	(19)
Ödənilmiş aktivlər	1,004	-	225	1,229
Mərhələ 1-ə köçürmə	-	-	-	-
Mərhələ 2-yə köçürmə	-	-	-	-
Mərhələ 3-ə köçürmə	-	-	-	-
GKZ-nin yenidən dəyərləndirilməsi, xalis	19	-	-	19

8 Müştərilərə Verilmiş Kreditlər (davamı)

Gözlənilən kredit zərəri üzrə ehtiyat - kənd təsərrüfatı sektoru	Mərhələ 1	Mərhələ 2	Mərhələ 3	Cəmi
Silinmiş məbləğlər	-	-	-	-
31 dekabr 2022-ci il tarixinə qalıq	**(5,765)**	**-**	**(573)**	**(6,338)**

Kreditlərin ümumi qalıq dəyəri - ticarət sektoru	Mərhələ 1	Mərhələ 2	Mərhələ 3	Cəmi
1 yanvar 2022-ci il tarixinə qalıq	**1,635,990**	**4,407**	**35,192**	**1,675,589**
Yeni yaranmış və ya alınmış aktivlər	2,713,650	18,500	18,700	2,750,850
Hesablanmış faizdə dəyişikliklər	(2,270)	676	5,373	3,779
Ödənilmiş aktivlər	(2,446,500)	(19,041)	(31,342)	(2,496,883)
Mərhələ 1-ə köçürmə	-	-	-	-
Mərhələ 2-yə köçürmə	(12,606)	12,606	-	-
Mərhələ 3-ə köçürmə	(28,182)	-	28,182	-
Bərpa edilmiş aktivlər	20,128	-	16,893	37,021
Silinmiş məbləğlər	-	-	-	-
31 dekabr 2022-ci il tarixinə qalıq	**1,880,210**	**17,148**	**72,998**	**1,970,356**

Gözlənilən kredit zərəri üzrə ehtiyat - ticarət sektoru	Mərhələ 1	Mərhələ 2	Mərhələ 3	Cəmi
1 yanvar 2022-ci il tarixinə qalıq	**(43,776)**	**(135)**	**(28,089)**	**(72,000)**
Yeni yaranmış və ya alınmış aktivlər	(24,743)	(2,147)	(3,330)	(30,220)
Hesablanmış faizdə dəyişikliklər	(195)	(91)	35	(251)
Diskontun qaytarılması	(132)	(19)	-	(151)
Ödənilmiş aktivlər	15,177	-	312	15,489
Mərhələ 1-ə köçürmə	-	-	-	-
Mərhələ 2-yə köçürmə	4,060	(4,060)	-	-
Mərhələ 3-ə köçürmə	16,413	-	(16,413)	-
GKZ-nin yenidən dəyərləndirilməsi, xalis	27,019	(2,150)	(13,700)	11,169
Silinmiş məbləğlər	-	-	-	-
31 dekabr 2022-ci il tarixinə qalıq	**(6,177)**	**(8,602)**	**(61,185)**	**(75,964)**

Kreditlərin ümumi qalıq dəyəri - xidmət və digər sektorlar	Mərhələ 1	Mərhələ 2	Mərhələ 3	Cəmi
1 yanvar 2022-ci il tarixinə qalıq	**4,663,998**	**2,172**	**299,707**	**4,965,877**
Yeni yaranmış və ya alınmış aktivlər	9,626,900	39,050	22,400	9,688,350
Hesablanmış faizdə dəyişikliklər	31,307	1,339	161	32,807
Ödənilmiş aktivlər	(8,044,122)	(12,608)	(173,258)	(8,229,988)
Mərhələ 1-ə köçürmə	669	(669)	-	-
Mərhələ 2-yə köçürmə	(6,609)	6,609	-	-
Mərhələ 3-ə köçürmə	(15,866)	(10,448)	26,314	-
Bərpa edilmiş aktivlər	55,215	-	71,949	127,164
Silinmiş məbləğlər	-	-	(383)	(383)
31 dekabr 2022-ci il tarixinə qalıq	**6,311,492**	**25,445**	**246,890**	**6,583,827**

Gözlənilən kredit zərəri üzrə ehtiyat - xidmət və digər sektorlar	Mərhələ 1	Mərhələ 2	Mərhələ 3	Cəmi
1 yanvar 2022-ci il tarixinə qalıq	**(2,304)**	**(2,000)**	**(296,776)**	**(301,080)**
Yeni yaranmış və ya alınmış aktivlər	(90,506)	(4,341)	(4,377)	(99,224)
Hesablanmış faizdə dəyişikliklər	(884)	(122)	(5)	(1,011)
Diskontun qaytarılması	(679)	-	(96)	(775)
Ödənilmiş aktivlər	102,867	52	77,864	180,783

8 Müştərilərə Verilmiş Kreditlər (davamı)

Gözlənilən kredit zərəri üzrə ehtiyat - xidmət və digər sektorlar	Mərhələ 1	Mərhələ 2	Mərhələ 3	Cəmi
Mərhələ 1-ə köçürmə	(144)	144	-	-
Mərhələ 2-yə köçürmə	2,104	(2,104)	-	-
Mərhələ 3-ə köçürmə	10,245	5,573	(15,818)	-
GKZ-nin yenidən dəyərləndirilməsi, xalis	(49,043)	(765)	(21,826)	(71,634)
Silinmiş məbləğlər	-	-	-	-
31 dekabr 2022-ci il tarixinə qalıq	**(28,344)**	**(3,563)**	**(261,034)**	**(292,941)**

31 dekabr 2022-ci il tarixində bitən il üzrə ümumi qalıq dəyərində və gözlənilən kredit zərərində dəyişikliklərin təhlili aşağıdakı kimidir:

Kreditlərin ümumi qalıq dəyəri - kənd təsərrüfatı sektoru	Mərhələ 1	Mərhələ 2	Mərhələ 3	Cəmi
1 yanvar 2022-ci il tarixinə qalıq	**147,382**	**1,354**	**1,026,064**	**1,174,800**
Yeni yaranmış və ya alınmış aktivlər	206,100	-	-	206,100
Hesablanmış faizdə dəyişikliklər	(6,637)	(1,354)	4,126	(3,865)
Ödənilmiş aktivlər	(218,290)	-	(144,957)	(363,247)
Mərhələ 1-ə köçürmə	-	-	-	-
Mərhələ 2-yə köçürmə	-	-	-	-
Mərhələ 3-ə köçürmə	-	-	-	-
Bərpa edilmiş aktivlər	-	-	247,412	247,412
Silinmiş məbləğlər	-	-	(1,131,847)	(1,131,847)
31 dekabr 2022-ci il tarixinə qalıq	**128,555**	**-**	**798**	**129,353**

Gözlənilən kredit zərəri üzrə ehtiyat - kənd təsərrüfatı sektoru	Mərhələ 1	Mərhələ 2	Mərhələ 3	Cəmi
1 yanvar 2022-ci il tarixinə qalıq	**(654)**	**(75)**	**(943,147)**	**(943,876)**
Yeni yaranmış və ya alınmış aktivlər	(971)	-	-	(971)
Hesablanmış faizdə dəyişikliklər	(2)	-	-	(2)
Diskontun qaytarılması	(1,325)	-	-	(1,325)
Ödənilmiş aktivlər	773	-	63,065	63,838
Mərhələ 1-ə köçürmə	-	-	-	-
Mərhələ 2-yə köçürmə	-	-	-	-
Mərhələ 3-ə köçürmə	-	-	-	-
GKZ-nin yenidən dəyərləndirilməsi, xalis	1,123	75	(1,943)	(745)
Silinmiş məbləğlər	-	-	881,227	881,227
31 dekabr 2022-ci il tarixinə qalıq	**(1,056)**	**-**	**(798)**	**(1,854)**

Kreditlərin ümumi qalıq dəyəri - ticarət sektoru	Mərhələ 1	Mərhələ 2	Mərhələ 3	Cəmi
1 yanvar 2022-ci il tarixinə qalıq	**1,527,036**	**4,735**	**339,858**	**1,871,629**
Yeni yaranmış və ya alınmış aktivlər	2,459,400	5,100	29,300	2,493,800
Hesablanmış faizdə dəyişikliklər	6,243	(4,585)	3,916	5,574
Ödənilmiş aktivlər	(2,346,773)	(843)	(76,773)	(2,424,389)
Mərhələ 1-ə köçürmə	-	-	-	-
Mərhələ 2-yə köçürmə	-	-	-	-
Mərhələ 3-ə köçürmə	(13,138)	-	13,138	-
Bərpa edilmiş aktivlər	3,222	-	63,813	67,035
Silinmiş məbləğlər	-	-	(338,060)	(338,060)
31 dekabr 2022-ci il tarixinə qalıq	**1,635,990**	**4,407**	**35,192**	**1,675,589**

8 Müştərilərə Verilmiş Kreditlər (davamı)

Gözlənilən kredit zərəri üzrə ehtiyat - ticarət sektoru	Mərhələ 1	Mərhələ 2	Mərhələ 3	Cəmi
1 yanvar 2022-ci il tarixinə qalıq	**(8,662)**	**(264)**	**(228,301)**	**(237,227)**
Yeni yaranmış və ya alınmış aktivlər	(14,833)	(130)	(6,712)	(21,675)
Hesablanmış faizdə dəyişikliklər	(72)	(5)	21	(56)
Diskontun qaytarılması	(8,202)	-	-	(8,202)
Ödənilmiş aktivlər	9,074	-	20,869	29,943
Mərhələ 1-ə köçürmə	-	-	-	-
Mərhələ 2-yə köçürmə	-	-	-	-
Mərhələ 3-ə köçürmə	7,361	-	(7,361)	-
GKZ-nin yenidən dəyərləndirilməsi, xalis	(28,442)	264	(5,996)	(34,174)
Silinmiş məbləğlər	-	-	199,391	199,391
31 dekabr 2022-ci il tarixinə qalıq	**(43,776)**	**(135)**	**(28,089)**	**(72,000)**

Kreditlərin ümumi qalıq dəyəri - xidmət və digər sektorlar	Mərhələ 1	Mərhələ 2	Mərhələ 3	Cəmi
1 yanvar 2022-ci il tarixinə qalıq	**4,140,254**	**75,200**	**1,172,381**	**5,387,835**
Yeni yaranmış və ya alınmış aktivlər	7,262,100	7,750	4,500	7,274,350
Hesablanmış faizdə dəyişikliklər	1,545	(59,784)	58,562	323
Ödənilmiş aktivlər	(6,656,939)	(16,153)	(274,597)	(6,947,689)
Mərhələ 1-ə köçürmə	5,365	(5,365)	-	-
Mərhələ 2-yə köçürmə	(25,019)	25,212	(193)	-
Mərhələ 3-ə köçürmə	(63,579)	(24,688)	88,267	-
Bərpa edilmiş aktivlər	356	-	108,539	108,895
Silinmiş məbləğlər	(85)	-	(857,752)	(857,837)
31 dekabr 2022-ci il tarixinə qalıq	**4,663,998**	**2,172**	**299,707**	**4,965,877**

Gözlənilən kredit zərəri üzrə ehtiyat - xidmət və digər sektorlar	Mərhələ 1	Mərhələ 2	Mərhələ 3	Cəmi
1 yanvar 2022-ci il tarixinə qalıq	**(7,492)**	**(1,098)**	**(1,017,845)**	**(1,026,435)**
Yeni yaranmış və ya alınmış aktivlər	(35,712)	(353)	(3,901)	(39,966)
Hesablanmış faizdə dəyişikliklər	(144)	(23)	-	(167)
Diskontun qaytarılması	(19,164)	(2)	(97)	(19,263)
Ödənilmiş aktivlər	18,618	65	142,607	161,290
Mərhələ 1-ə köçürmə	(27)	27	-	-
Mərhələ 2-yə köçürmə	808	(885)	77	-
Mərhələ 3-ə köçürmə	38,762	2,035	(40,797)	-
GKZ-nin yenidən dəyərləndirilməsi, xalis	2,047	(1,766)	(67,176)	(66,895)
Silinmiş məbləğlər	-	-	690,356	690,356
31 dekabr 2022-ci il tarixinə qalıq	**(2,304)**	**(2,000)**	**(296,776)**	**(301,080)**

Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il tarixli Fərmanına əsasən, 1 avqust 2019-cu il tarixində ARMB ilə imzalanmış müqaviləyə görə, 1 yanvar 2012-ci il tarixindən Fərmanın imzalandığı tarixədək götürülmüş, gecikməsi 360 gündən çox olan və qalıq dəyəri 10,000 USD və ya 17,000 AZN təşkil edən kreditlərin restrukturizasiyası məqsədilə ilə ARMB Cəmiyyətə illik 0.1% faiz dərəcəsi ilə 5 illik dövlət təminatlı kredit vermişdir. Cəmiyyət bu vəsaitləri müvafiq müştərilərinə illik 1% faiz dərəcəsi ilə kreditlərin verilməsində istifadə etmişdir. 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə müştərilərə verilmiş kreditlərin hamısı Azərbaycan Respublikasında fəaliyyət göstərən fiziki şəxslərə təqdim edilmiş kreditlərdən ibarətdir. 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə müştərilərə verilmiş kreditlərin tərkibində müvafiq olaraq, 105,104 AZN və 69,124 AZN məbləğində vəsaitlər hesablanmış faizlər üzrə alınacaq vəsaitlərin qalığını göstərir. 2023-cü və 2022-ci illər üzrə müvafiq olaraq 604,544 AZN və 513,527 AZN məbləğində bərpa edilmiş vəsaitlərdən pul axınları əldə edilmişdir.

9 Əmlak, Avadanlıq və Qeyri-Maddi Aktivlər

	Torpaq və tikililər	Nəqliyyat vasitələri	Kompüterlər və rabitə avadanlığı	Mebel və qurğular	Digər	Qeyri-maddi aktivlər	Cəmi
İlkin dəyər							
1 yanvar 2022-ci il tarixinə qalıq	**471,262**	**101,500**	**45,182**	**24,633**	**55,362**	**4,222**	**702,161**
Əlavələr	20,735	25,000	5,868	-	5,948	-	57,551
Silinmələr	-	-	(5,839)	(1,667)	(3,181)	-	(10,687)
31 dekabr 2022-ci il tarixinə qalıq	**491,997**	**126,500**	**45,211**	**22,966**	**58,129**	**4,222**	**749,025**
Əlavələr	-	-	5,304	-	-	-	5,304
Silinmələr	-	(66,000)	(30,547)	(10,344)	(19,970)	-	(126,861)
31 dekabr 2023-cü il tarixinə qalıq	**491,997**	**60,500**	**19,968**	**12,622**	**38,159**	**4,222**	**627,468**
Yığılmış köhnəlmə							
1 yanvar 2022-ci il tarixinə qalıq	**(196,498)**	**(28,938)**	**(44,015)**	**(20,402)**	**(52,288)**	**(4,222)**	**(346,363)**
Köhnəlmə xərci	(32,988)	(24,368)	(2,986)	(1,014)	(2,962)	-	(64,318)
Silinmiş maddələr üzrə yığılmış köhnəlmə	-	-	5,839	1,667	3,181	-	10,687
31 dekabr 2022-ci il tarixinə qalıq	**(229,486)**	**(53,306)**	**(41,162)**	**(19,749)**	**(52,069)**	**(4,222)**	**(399,994)**
Köhnəlmə xərci	(33,698)	(12,100)	(4,127)	(1,082)	(2,610)	-	(53,617)
Silinmiş maddələr üzrə yığılmış köhnəlmə	-	43,446	30,547	10,344	19,970	-	104,307
31 dekabr 2023-cü il tarixinə qalıq	**(263,184)**	**(21,960)**	**(14,742)**	**(10,487)**	**(34,709)**	**(4,222)**	**(349,304)**
Xalis qalıq dəyəri							
1 yanvar 2022-ci il tarixinə qalıq	**274,764**	**72,562**	**1,167**	**4,231**	**3,074**	**-**	**355,798**
31 dekabr 2022-ci il tarixinə qalıq	**262,511**	**73,194**	**4,049**	**3,217**	**6,060**	**-**	**349,031**
31 dekabr 2023-ci il tarixinə qalıq	**228,813**	**38,540**	**5,226**	**2,135**	**3,450**	**-**	**278,164**

10 Digər Aktivlər

	31 dekabr 2023-cü il	31 dekabr 2022-ci il
Satış üçün saxlanılan aktivlər	25,300	70,798
Digər avans ödənişləri	9,467	130
Cəmi digər aktivlər	**34,767**	**70,928**

11 Müddətli Borc Öhdəlikləri

	31 dekabr 2023-cü il	31 dekabr 2022-ci il
Yerli maliyyə institutları qarşısında müddətli borc öhdəlikləri	3,153,676	1,406,696
Xarici maliyyə institutları qarşısında müddətli borc öhdəlikləri	132,895	642,326
Cəmi müddətli borc öhdəlikləri	**3,286,571**	**2,049,022**

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə müddətli borc öhdəliklərinin tərkibində müvafiq olaraq 9,741 AZN və 10,656 AZN məbləğində vəsaitlər hesablanmış faizlər üzrə ödəniləcək vəsaitlərin qalığını göstərir.

5 avqust 2016-cı il tarixində Cəmiyyət kreditorlarla kreditorlararası saziş imzalamışdır. Bu müqaviləyə əsasən bütün kreditlər tam şəkildə hər bir kreditora qaytarılana qədər heç bir kreditor hər hansı borcla bağlı bu saziş imzalanan tarixdən məcburi xarakterli hərəkətlərə yol verməyəcək. Bütün kreditorlar 1 avqust 2016-cı il tarixindən etibarən kreditin faiz dərəcəsini 5%-ə qədər azaltmağa razılıq vermişdir. Borc alınmış bütün vəsaitlər 1 avqust 2016-cı il tarixinə olan 1 USD = 0.8948 EUR və 1 USD = 1.5851 AZN məzənnəsi ilə ABŞ dollarına çevrilmişdir və ödəniş qrafiki yenidən təyin edilmişdir. Restrukturizasiya dövründə Borcalan öz əməliyyatları üçün yerli və ya beynəlxalq mənbələrdən yeni borc və ya maliyyələşdirmə əldə edə bilər. Bu tarixdən sonra müqaviləyə üç əlavə imzalanmışdır. 30 iyun 2017-ci ildə imzalanan birinci əlavəyə görə, bütün kreditorlar əvvəl razılaşdırılmış faiz ödənişini 1 iyul 2017-ci ildən etibarən 5%-dən 2%-ə endirməyə razılaşır. 28 fevral 2018-ci ildə imzalanmış ikinci əlavəyə görə bütün kreditorlar 1 mart 2018-ci il tarixindən 28 fevral 2019-cu il tarixinədək müvafiq olaraq öz kreditlərinə faiz hesablamaq və faiz ödənişi almaq hüquqlarından imtina edir. 30 iyun 2018-ci il tarixində imzalanmış üçüncü əlavə kreditlərin əsas məbləğlərinin ödənişi üçün tarixlərin tənzimlənməsi barədə razılaşmadır.

Yerli təşkilatlar qarşısında borc öhdəliklərinə ARMB-dən və Paşa Bank ASC-dən alınmış kreditlər daxildir.

Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il tarixli Fərmanına əsasən, 1 avqust 2019-cu il tarixində ARMB ilə imzalanmış müqaviləyə görə, 1 yanvar 2012-ci il tarixindən Fərmanın imzalandığı tarixədək götürülmüş, gecikməsi 360 gündən çox olan və qalıq dəyəri 10,000 USD və ya 17,000 AZN təşkil edən kreditlərin restrukturizasiyası məqsədilə ilə ARMB Cəmiyyətə illik 0.1% faiz dərəcəsi ilə 5 illik dövlət təminatlı kredit vermişdir. ARMB 29 dekabr 2019-cu il tarixində 922,962 AZN məbləğində krediti Cəmiyyətə təqdim etmişdir.

Cəmiyyət Paşa Bank ASC ilə 25 aprel 2023-cü il və 15 dekabr 2023-cü il tarixlərində iki kredit müqaviləsi bağlamışdır. Bu müqavilələrə görə, Paşa Bank ASC Cəmiyyətə, müvafiq olaraq, 700,000 AZN və 500,000 AZN məblağında iki kredit təqdim etmişdir. Kreditlər 13% illik faiz dərəcəsinə malikdir və müvafiq olaraq, 11 dekabr 2023-cü il və 13 iyun 2024-cü il tarixlərinədək ödənilməlidir. 700,000 AZN məblağında olan kredit 2023-cü ildə tam şəkildə geri ödənilmişdir.

Cəmiyyət Paşa Bank ASC ilə 13 iyun 2023-cü il, 29 avqust 2023-cü il və 21 noyabr 2023-cü il tarixlərində üç kredit müqaviləsi bağlamışdır. Bu müqavilələrə görə, Paşa Bank ASC Cəmiyyətə, müvafiq olaraq, 866,000 AZN, 1,500,000 AZN və 1,000,000 AZN məbləğində üç kredit təqdim etmişdir. Kreditlər 13% illik faiz dərəcəsinə malikdir və müvafiq olaraq, 13 dekabr 2024-cü il, 28 fevral 2025-ci il və 21 may 2025-ci il tarixlərinədək ödənilməlidir.

12 Buraxılmış Borc Qiymətli Kağızları

	31 dekabr 2023-cü il	31 dekabr 2022-ci il
Daxili bazarda buraxılmış istiqrazlar	350,000	600,000
Cəmi buraxılmış borc qiymətli kağızları	**350,000**	**600,000**

Cəmiyyət 14 sentyabr 2023-cü il tarixində 250,000 AZN məbləğində, nominal dəyəri 1,000 AZN olan 250 ədəd və 21 dekabr 2023-cü il tarixində, 350,000 AZN məbləğində, nominal dəyəri 1,000 AZN olan 350 ədəd faizli təmin edilməmiş istiqrazlar buraxmışdır. Bu emissiyalar Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində müvafiq olaraq, IS2004021534 və AZ2005021533 dövlət qeydiyyat nömrəsi ilə qeydiyyata alınmışdır. İstiqrazların tadavül müddəti 12 və 18 ay, illik faiz dərəcəsi 14% olmaqla, hər ay ödənilməlidir. İstiqrazların yerləşdirilməsi üzrə anderrayter qismində "CPM-invest" İnvestisiya Şirkəti çıxış edir. IS2004021534 qeydiyyat nömrəli istiqrazlar 2023-cü ildə Cəmiyyət tərəfindən geri ödənilmişdir.

13 Digər Öhdəliklər

	31 dekabr 2023-cü il	31 dekabr 2022-ci il
İstifadə edilməmiş məzuniyyətlər üzrə hesablanmış öhdəlik	23,191	5,224
Vergi və sosial ayırmalar üzrə öhdəliklər	11,478	-
Digər	2,282	1,393
Cəmi digər öhdəliklər	**36,951**	**6,617**

14 Nizamnamə Kapitalı

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə nizamnamə kapitalı hər birinin nominal dəyəri 6,937.74 AZN təşkil edən 100 ədəd paylardan ibarət olmuşdur. Viator AS (Norveç Krallığı) Cəmiyyətin paylarının 100% hissəsinin sahibidir.

15 Faiz Gəliri və Xərci

	31 dekabr 2023-cü il tarixində bitən il	31 dekabr 2022-ci il tarixində bitən il
Faiz gəlirinə daxildir:		
Amortizasiya edilmiş dəyərdə qeyd edilmiş aktivlər üzrə faiz gəliri	1,805,091	1,521,152
Cəmi faiz gəliri	**1,805,091**	**1,521,152**
Faiz gəliri		
Müştərilərə verilmiş kreditlər	1,805,091	1,521,152
Cəmi faiz gəliri	**1,805,091**	**1,521,152**
Faiz xərcinə daxildir:		
Amortizasiya edilmiş dəyərdə qeyd edilmiş öhdəliklər üzrə faiz xərci	(284,071)	(156,876)
Cəmi faiz xərci	**(284,071)**	**(156,876)**
Faiz xərci		
Müddətli borc öhdəlikləri	(284,071)	(87,410)
Buraxılmış borc qiymətli kağızları	-	(69,466)
Cəmi faiz xərci	**(284,071)**	**(156,876)**
Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat ayırmalarından əvvəl xalis faiz gəliri	**1,521,020**	**1,364,276**

16 Digər Gəlirlər

Digər xərclər çıxılmaqla, digər gəlirlər 30,244 AZN təşkil etmişdir (2021: 4,914 AZN) və müştərilərə göstərilmiş müxtəlif xidmətlər, əməkdaşlardan daxil olmuş müxtəlif ödənişlər və digər əməliyyatlardan ibarətdir.

17 İnzibati və Digər Əməliyyat Xərcləri

	31 dekabr 2023-cü il tarixində bitən il	31 dekabr 2022-ci il tarixində bitən il
İşçi heyəti ilə bağlı xərclər	1,365,101	1,233,409
Bank komissiya xərcləri	76,861	37,402
Mühafizə xərcləri	65,343	55,835
Köhnəlmə xərci	53,617	64,318
İcarə xərcləri	41,256	37,079
Ezamiyyə xərcləri	24,267	16,535
Sığorta xərcləri	24,090	20,191
Kommunal xərclər	15,854	14,129
İnstitusional inkişaf xərcləri	15,375	9,805
Professional services and fees	15,340	9,204
Ofis ləvazimatları	13,610	10,089
Rabitə xərcləri	12,431	10,922
Təlim xərcləri	8,488	5,856
Təmir və saxlanma xərcləri	7,157	18,487
Mənfəət vergisindən başqa vergi xərcləri	2,903	3,193
Digər xərclər	38,094	31,433
Cəmi inzibati və digər əməliyyat xərcləri	**1,779,787**	**1,577,887**

18 Mənfəət Vergisi Xərci

Mənfəət vergisi xərcinə aşağıdakılar daxildir:

	31 dekabr 2023-cü il tarixində bitən il	31 dekabr 2022-ci il tarixində bitən il
Cari mənfəət vergisi:		
Cari mənfəət vergisi xərci	73,378	63,608
Təxirə salınmış vergi:		
Müvəqqəti fərqlərin yaranması və geri qaytarılması üzrə	(10,765)	(14,515)
Mənfəət vergisi xərci	**62,613**	**49,093**

2023-cü və 2022-ci illər ərzində Cəmiyyətə tətbiq edilən mənfəət vergisi dərəcəsi 20% təşkil etmişdir. Gözlənilən və faktiki tətbiq edilən vergi xərclərinin üzləşməsi aşağıda göstərilir.

	31 dekabr 2023-cü il tarixində bitən il	31 dekabr 2022-ci il tarixində bitən il
Vergidən əvvəl (zərər)/mənfəət	656,252	197,794
Yerli qanunvericiliklə nəzərdə tutulmuş mənfəət vergisi dərəcəsi - 20%	131,250	39,559
(Vergi tutulmayan gəlirlərin)/vergidən çıxılmayan xərclərin vergi təsiri	(68,637)	9,534
Mənfəət vergisi xərci	**62,613**	**49,093**

MHBS və Azərbaycan Respublikasının yerli vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədilə aktiv və öhdəliklərin balans dəyəri arasında müvəqqəti fərqlər əmələ gəlir. Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir və 20% (2021: 20%) dərəcəsində qeydə alınır.

18 Mənfəət Vergisi Xərci (davamı)

	Maliyyə vəziyyəti haqqında hesabat		Məcmu gəlirlər haqqında hesabat	
	31 dekabr 2023-cü il	31 dekabr 2022-ci il	31 dekabr 2023-cü il tarixində bitən il	31 dekabr 2022-ci il tarixində bitən il
Müştərilərə verilmiş kreditlər	48,372	41,867	6,505	7,604
Əmlak, avadanlıq və qeyri-maddi aktivlər	(2,315)	562	(2,877)	894
Digər aktivlər	11,882	11,882	-	-
Müddətli borc öhdəlikləri	1,054	1,275	(221)	434
Digər öhdəliklər	6,023	1,526	4,497	(140)
Yenidənqiymətləndirmə üzrə artım	(25,511)	(28,372)	2,861	5,723
Mənfəət vergisi gəliri			**10,765**	**14,515**
Xalis təxirə salınmış vergisi aktivi	**39,505**	**28,740**		

19 Təəhhüdlər və Şərti Öhdəliklər

ARMB-nin tələblərinə uyğunluq. Cəmiyyət Bank olmayan Kredit Təşkilatları və digər normativ aktlar haqqında qanuna uyğun olaraq, ARMB tərəfindən müəyyən olunmuş qayda və tələblərə riayət etməlidir. 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə Cəmiyyət ARMB tərəfindən müəyyən olunmuş qayda və tələblərə riayət etmişdir.

Kapital qoyuluşları üzrə öhdəliklər. 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə Cəmiyyətin kapital qoyuluşları üzrə hər hansı əhəmiyyətli öhdəliyi olmamışdır.

Məhkəmə prosedurları. Müəyyən dövrlərdə və əməliyyatların normal gedişi zamanı Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Rəhbərlik öz ehtimallarına və Cəmiyyətin mütəxəssislərinin məsləhətinə əsasən iddialarla bağlı heç bir əhəmiyyətli zərərin yaranmayacağını hesab edir və müvafiq olaraq, bu maliyyə hesabatlarında heç bir ehtiyat yaradılmamışdır.

Vergi qanunvericiliyi. Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq orqanlar tərəfindən etiraz edilə bilər.

Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fiskal fəaliyyət dövrü yoxlanıla bilər. Xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Cəmiyyətin rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, valyuta və gömrüklə bağlı Cəmiyyətin mövqeləri qorunacaq və Cəmiyyətin potensial vergi öhdəlikləri hazırkı maliyyə hesabatlarında qeydə alınmış məbləğlərdən artıq olmayacaqdır. Müvafiq olaraq, 31 dekabr 2023-cü və 31 dekabr 2022-ci il tarixlərinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır.

20 Əlaqəli Tərəflərlə Qalıqlar və Əməliyyatlar

Hazırkı maliyyə hesabatları məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar birbaşa və ya dolayı yolla bir və ya bir neçə qrupun nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin.

Əlaqəli tərəflər ilə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən, həmin münasibətlərin mahiyyətinin onların hüquqi formasından üstünlüyü prinsipi tətbiq olunur.

Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər. Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında həyata keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

20 Əlaqəli Tərəflərlə Qalıqlar və Əməliyyatlar (davamı)

Cəmiyyətin 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə əlaqəli tərəflərlə aşağıdakı qalıqları olmuşdur:

	31 dekabr 2023-cü il		31 dekabr 2022-ci il	
	Əlaqəli tərəflərlə qalıqlar	Maliyyə hesabatlarında əks edilmiş ümumi kateqoriya	Əlaqəli tərəflərlə qalıqlar	Maliyyə hesabatlarında əks edilmiş ümumi kateqoriya
Müştərilərə verilmiş kreditlər		8,112,145		6,265,458
- Əsas idarəedici heyət	-		19,498	
Müddətli borc öhdəlikləri		3,286,571		2,049,022
- Birgə nəzarət, yaxud əhəmiyyətli təsirə malik olan təşkilatlar	3,743		36,695	

Cəmiyyətin 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərində bitən illər üzrə əlaqəli tərəflərlə aşağıdakı əməliyyatları olmuşdur:

	31 dekabr 2023-cü il tarixində bitən il		31 dekabr 2022-ci il tarixində bitən il	
	Əlaqəli tərəflərlə qalıqlar	Maliyyə hesabatlarında əks edilmiş ümumi kateqoriya	Əlaqəli tərəflərlə qalıqlar	Maliyyə hesabatlarında əks edilmiş ümumi kateqoriya
Faiz gəliri		1,805,091		1,521,152
- Əsas idarəedici heyət	387		380	
Faiz xərci		284,071		156,876
- Birgə nəzarət, yaxud əhəmiyyətli təsirə malik olan təşkilatlar	410		320	
İşçi heyəti ilə bağlı xərclər		1,365,101		1,233,409
- Əsas idarəedici heyət	493,396		346,408	

* Cəmiyyətin əsas idarəedici heyəti İdarə Heyətinin Sədri və İdarə Heyətinin Sədr Müavinindən ibarətdir.

** Birgə nəzarət, yaxud əhəmiyyətli təsirə malik olan təşkilatlara Normisjon Region East and Normisjon Nordland Eiendom AS təşkilatları daxildir ki, onlar Normisjon şəbəkəsinin ortaq tərəfləri olan iki ayrı hüquqi şəxsdir.

21 Maliyyə Risklərinin İdarə Edilməsi

Cəmiyyətin əsas maliyyə öhdəliklərinə müddətli borc öhdəlikləri və buraxılmış borc qiymətli kağızları daxildir. Bu maliyyə öhdəliklərinin əsas məqsədi Cəmiyyətin əməliyyatlarını maliyyələşdirməkdir.

Cəmiyyətin əsas maliyyə aktivlərinə onun birbaşa fəaliyyətindən əldə etdiyi pul vəsaitləri və onların ekvivalentləri və müştərilərə verilmiş kreditlər daxildir. Cəmiyyətin adi fəaliyyət gedişində o, müxtəlif maliyyə risklərinə məruz qalır: kredit riski, bazar riski və likvidlik riski.

Cəmiyyətdə risklərin idarə edilməsi proqramı maliyyə bazarlarının qeyri-müəyyənlini nəzərə alaraq Cəmiyyətin maliyyə nəticələrinə potensial mənfi təsirləri minimallaşdırmağa çalışır.

Risklərin idarə edilməsi Cəmiyyətin rəhbərliyi tərəfindən Cəmiyyətin əməliyyat vahidləri ilə sıx əlaqədə həyata keçirilir. Rəhbərlik riskləri minimal qəbul edilən səviyyəyə gətirmək üçün bütün lazımi addımları atır.

21 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Kredit riski. Maliyyə aləti ilə əməliyyat aparan bir tərəfin müqavilə öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurularsa, Cəmiyyət kredit riskinə məruz qalır. Kredit riski Cəmiyyətin qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır.

Cəmiyyətin məruz qaldığı maksimal kredit riski, aşağıdakı cədvəllərdə təqdim edildiyi kimi, maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin qalıq dəyərində əks etdirilmişdir:

	31 dekabr 2023-cü il		
	Kredit riskinə maksimal məruz qalma həddi	**Likvid aktivlərlə təmin edilmiş**	**Alınmış təminatlardan sonra xalis məruz qalma həddi**
Müştərilərə verilmiş kreditlər	8,112,145	6,407,132	1,705,013

	31 dekabr 2022-ci il		
	Kredit riskinə maksimal məruz qalma həddi	**Likvid aktivlərlə təmin edilmiş**	**Alınmış təminatlardan sonra xalis məruz qalma həddi**
Müştərilərə verilmiş kreditlər	6,265,458	5,539,315	726,143

Kredit riskinin idarə edilməsi. Kredit riski Cəmiyyətin biznesi üçün yeganə əhəmiyyətli riskdir. Buna görə, rəhbərlik kredit riskinin idarə edilməsinə xüsusi diqqət yetirir. Əsas kredit risklərinin idarə edilməsi metodları Cəmiyyətin qəbul etdiyi Kredit Siyasətində qeyd olunur. Bu, əvvəlcədən müəyyən edilmiş meyarlara əsasən (sahə, müddət, əlaqəli tərəflər, region və.s) limitlərin təyin edilməsi və kredit portfelinin diversifikasiyasını əhatə edir. Kreditlər, həmçinin başlanğıcda və müddətin sonuna qədər "ən yaxşı praktika reytinqi" və "qiymətləndirmə sistemləri" əsasında təyin edilmiş risk dərəcələrinə görə təsniflaşdirilir. Bu vasitələr həmçinin potensial itkilər üçün münasib ehtiyatların yaradılmasında da istifadə ediləcək. Kredit əməliyyatları ilə bağlı Azərbaycan Respublikası Mərkəzi Bankı ("ARMB") tərəfindən tətbiq edilən bütün məhdudiyyət və normativlər Cəmiyyətin Kredit Siyasətində nəzərə alınıb.

GKZ-nin qiymətləndirilməsi. GKZ gələcək pul axınlarındakı azalmaların ehtimal ilə ölçülmüş cari dəyərinin qiymətləndirilməsidir (yəni, müəyyən müddət ərzində çəki qismində müvafiq defolt riskləri istifadə olunmaqla kredit zərərlərinin orta çəkisidir). GKZ-nin qiymətləndirilməsi obyektiv olub, mümkün nəticələrin miqyasını qiymətləndirməklə müəyyən edilir. GKZ-nin qiymətləndirilməsi Cəmiyyət tərəfindən istifadə olunan dörd parametr əsasında həyata keçirilir: defolt ehtimalı ("PD"), defolta məruz qalan dəyər ("EAD"), defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ ("LGD") və diskont dərəcəsi ("DR").

EAD - hesabat dövründən sonra kredit qalığının məbləğində gözlənilən dəyişiklikləri nəzərə alaraq, gələcək defolt tarixində kredit qalığının qiymətləndirilməsi, o cümlədən əsas borc və faizlərin ödənilməsi və kredit öhdəlikləri üzrə vəsaitlərin gözlənilən istifadəsidir. EAD - maliyyə alətinin növündən asılı olaraq dəyişən gözlənilən ödəniş qrafikinə əsasən müəyyən edilir.

Amortizasiya olunan maliyyə alətləri və birdəfəlik kreditlər üçün EAD borcalan tərəfindən 12 ay müddətinə və ya bütöv müddət üzrə ödənişlər əsasında müəyyən edilir. Bu zaman, borcalan tərəfindən gözlənilən artıq ödəmə də nəzərə alınır. Hesablamaya, həmçinin vaxtından əvvəl ödəniş və ya yenidən maliyyələşdirmə ehtimalları daxildir.

PD - müəyyən müddət ərzində defoltun baş vermə ehtimalının qiymətləndirilməsidir. GKZ-nin hesablanması üçün iki növ defolt ehtimalından istifadə edilir: 12 aylıq və bütöv müddət üçün defolt ehtimalı. 12 aylıq defolt ehtimalının qiymətləndirilməsi əvvəlki dövrlər üzrə defolt haqqında mövcud olan ən son məlumatlara əsaslanır və zərurət yarandıqda, dəstəklənən proqnoz məlumatları da nəzərə alınır. Bütöv müddət üçün defolt ehtimalı maliyyə alətinin qalan müddəti ərzində defoltun baş vermə ehtimalının qiymətləndirilməsini əks etdirir və maliyyə alətinin bütün müddəti ərzində 12 aylıq defolt ehtimalının məbləğinə bərabərdir.

21 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Defolt ehtimalının qiymətləndirilməsi məqsədilə Cəmiyyət aşağıdakı şərtlərdən biri və ya bir neçəsinin baş verdiyi təqdirdə defolt vəziyyətinin yarandığını hesab edir:

- borcalanın müqavilə ilə ödənişləri 90 gündən artıq gecikdirildikdə;
- borcalan aşağıda göstərilən ehtimal olunan müflis olma meyarlarına cavab verdikdə:
  - Cəmiyyət borcunu restrukturizasiya etmək məcburiyyətində qaldıqda;
  - borcalan vəfat etdikdə;
  - borcalan müflis olduqda və ya borcalanın müflis olma ehtimalı yüksək olduqda;
  - kreditlər çəkilmiş kredit zərərlərini əks etdirən əhəmiyyətli dərəcədə güzəştlə alındıqda və ya verildikdə.

Aşağıdakı keyfiyyət, kəmiyyət və ya məhdudlaşdırıcı meyarlardan biri və ya bir neçəsi baş verdiyi təqdirdə, Cəmiyyət maliyyə aləti üzrə kredit riskinin əhəmiyyətli dərəcədə artdığını hesab edir:

- ödəniş müddəti 30 gün gecikdirildikdə;
- kredit daxili nəzarət proseduruna uyğun olaraq "nəzarət siyahısına" daxil edildikdə.
- Nisbi məhdudlaşdırıcı meyar mövcud skorinq modellərindən istifadə etmədən maliyyə alətləri portfeli əsasında müəyyən edildikdə: Cəmiyyət müntəzəm olaraq yüksək kredit riskinə (yüksək kredit riskli regionlar, keyfiyyətsiz maliyyə alətləri, buraxılması dayandırılan maliyyə alətləri) malik seqmentlərin monitorinqini aparır və belə portfellər üzrə kredit riskinin əhəmiyyətli dərəcədə dəyişməsini müəyyən edir.

LGD - defolt baş verdiyi zaman yaranan zərərin qiymətləndirilməsidir. Bu, müqavilə üzrə ödənilməli gələcək pul axınları ilə borcalanın, həmçinin təminatın satışından əldə etməsi gözlənilən pul axınları arasındakı fərqə əsaslanır. Adətən bu göstərici EAD-nin faiz nisbəti kimi ifadə edilir. Gözlənilən zərərlər hesabat dövrünün sonuna cari dəyərə diskontlaşdırılır.

Diskont dərəcəsi maliyyə aləti üzrə ilkin effektiv faiz dərəcəsi və ya onun təxmini dəyəridir.

Hazırkı maliyyə hesabatlarında tanınmış GKZ səviyyəsi ilkin tanınmadan sonra borcalanın kredit riskinin əhəmiyyətli dərəcədə dəyişməsindən asılıdır. Bu yanaşma gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi üçün üç mərhələli modelə əsaslanır. 1-ci Mərhələ - ilkin tanınma zamanı dəyərsizləşməmiş və həmin vaxtdan kredit riski əhəmiyyətli dərəcədə artmamış maliyyə aktivləri üzrə 12 aylıq GKZ əsasında dəyərsizləşmə ehtiyatı tanınır. İlkin tanınma vaxtından etibarən kredit riski əhəmiyyətli dərəcədə artmış, lakin hələ dəyərsizləşmiş maliyyə aləti 2-ci Mərhələyə köçürülür və dəyərsizləşmə ehtiyatı bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında tanınır. Maliyyə aləti dəyərsizləşdikdə 3-cü Mərhələyə köçürülür və dəyərsizləşmə ehtiyatı bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında tanınır. Aktivin 3-cü Mərhələyə köçürülməsi nəticəsində Cəmiyyət faiz gəlirini ümumi balans dəyəri əsasında tanımağı dayandırır və faiz gəlirini hesablayarkən gözlənilən kredit zərərləri çıxılmaqla, balans dəyərinə aktivin effektiv faiz dərəcəsini tətbiq edir.

Kredit riskinin əhəmiyyətli dərəcədə artması meyarı artıq yerinə yetirilmədikdə, maliyyə aləti 1-ci Mərhələyə geri köçürülür. Əgər kredit qalığı kredit riskinin əhəmiyyətli artması nəticəsində 2-ci Mərhələyə köçürülmüşdürsə, Cəmiyyət həmin kredit riskinin aktuallığının saxlanması və ya dəyişməsindən əmin olmaq üçün ona nəzarət edir.

Cəmiyyət gözlənilən kredit zərərlərini portfel əsasında qiymətləndirir: eyni kredit riski reytinqləri və eyni kredit portfeli seqmentləri üçün GKZ-nin hesablanması prosesində eyni kredit riski parametrləri (məsələn, PD, LGD) tətbiq edilir. Bu yanaşma borcalanlar haqqında müəyyən məlumatlar (kreditin vaxtında ödənilməməsi, əvvəlki dövrlər üzrə zərərlər haqqında məlumat, yer və digər proqnoz məlumatlar kimi) əsasında portfelin eyni seqmentlərə daxil edilməsini əhatə edir.

Bazar riski. Bazar riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul axınlarının bazar qiymətlərindəki dəyişikliklər səbəbindən dəyişkən olacağı risklidir. Cəmiyyətin məruz qaldığı bazar riskinə əsasən faiz dərəcəsi riski və valyuta riski aiddir.

21 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Faiz dərəcəsi riski. Cəmiyyət bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır.

Aşağıdakı cədvəl "risk göstəricisinin ehtimal edilən mümkün dəyişməsi" üsulu ilə hesablanmış faizlərin dəyişməsinə Cəmiyyətin həssaslıq analizini təqdim edir:

	31 dekabr 2023-cü il		31 dekabr 2022-ci il	
	Faiz dərəcəsi +1%	Faiz dərəcəsi -1%	Faiz dərəcəsi +1%	Faiz dərəcəsi -1%
Maliyyə aktivləri				
Müştərilərə verilmiş kreditlər	81,121	(81,121)	62,655	(62,655)
Maliyyə öhdəlikləri				
Müddətli borc öhdəlikləri	(32,866)	32,866	(20,490)	20,490
Buraxılmış borc qiymətli kağızları	(3,500)	3,500	(6,000)	6,000
Mənfəət vergisindən əvvəlki mənfəətə xalis təsir	**44,755**	**(44,755)**	**36,165**	**(36,165)**

Valyuta riski. Məzənnə fərqlərindən asılı olaraq maliyyə alətinin dəyərindəki dəyişmələr xarici valyuta riski adlanır. Cəmiyyətin maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti mövcud valyuta məzənnələrinin dəyişməsi zamanı belə risklərin təsirinə məruz qalır. Cəmiyyətin xarici valyuta məzənnələrinin dəyişməsi zamanı məruz qalacağı risklər aşağıdakı cədvəldə təqdim edilmişdir:

	AZN	USD	EUR	Cəmi
Maliyyə aktivləri				
Pul vəsaitləri və onların ekvivalentləri	275,779	34,960	408	311,147
Müştərilərə verilmiş kreditlər	8,112,145	-	-	8,112,145
	8,387,924	34,960	408	8,423,292
Maliyyə öhdəlikləri				
Müddətli borc öhdəlikləri	3,153,676	132,895	-	3,286,571
Buraxılmış borc qiymətli kağızları	350,000	-	-	350,000
	3,503,676	132,895	-	3,636,571
31 dekabr 2023-cü il tarixinə xalis valyuta mövqeyi	**4,884,248**	**(97,935)**	408	**4,786,721**

	AZN	USD	EUR	Cəmi
Maliyyə aktivləri				
Pul vəsaitləri və onların ekvivalentləri	420,941	28,541	567	450,049
Müştərilərə verilmiş kreditlər	6,265,458	-	-	6,265,458
	6,686,399	28,541	567	6,715,507
Maliyyə öhdəlikləri				
Müddətli borc öhdəlikləri	1,406,696	642,326	-	2,049,022
Buraxılmış borc qiymətli kağızları	600,000	-	-	600,000
	2,006,696	642,326	-	2,649,022
31 dekabr 2022-ci il tarixinə xalis valyuta mövqeyi	**4,679,703**	**(613,785)**	**567**	**4,066,485**

21 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Aşağıdakı cədvəl Cəmiyyətin ABŞ dolları və Avronun Azərbaycan manatına nisbətən məzənnəsində 10%-lik artım və ya azalmasına həssaslığını təhlil edir. 10% əsas idarəedici heyətə xarici valyuta risklərinin təhlili üzrə daxili risk hesabatlarının təqdim edilməsi zamanı istifadə olunan həssaslıq dərəcəsidir və xarici valyuta məzənnəsinin dəyişməsinin Cəmiyyətə mümkün təsiri üzrə rəhbərliyin ehtimallarını əks etdirir.

Həssaslıq təhlili özünə yalnız xarici valyutada olan monetar maddələri daxil edir və onların dövrün sonunda xarici valyutaya çevrilməsinə məzənnədəki 10%-lik dəyişiklik qədər düzəliş edir:

	31 dekabr 2023-cü il		31 dekabr 2022-ci il	
	AZN/USD +10%	AZN/USD -10%	AZN/USD +10%	AZN/USD -10%
Mənfəət və ya zərərə təsiri	(9,794)	9,794	(61,379)	61,379
Kapitala təsiri	(9,794)	9,794	(61,379)	61,379

	31 dekabr 2023-cü il		31 dekabr 2022-ci il	
	AZN/EUR +10%	AZN/EUR -10%	AZN/EUR +10%	AZN/EUR -10%
Mənfəət və ya zərərə təsiri	41	(41)	57	(57)
Kapitala təsiri	41	(41)	57	(57)

Coğrafi risk konsentrasiya. Maliyyə aktiv və öhdəlikləri üzrə coğrafi risk konsentrasiyası aşağıdakı kimidir:

	Azərbaycan Respublikası	İƏİT ölkələri	Cəmi
Maliyyə aktivləri			
Pul vəsaitləri və onların ekvivalentləri	311,147	-	311,147
Müştərilərə verilmiş kreditlər	8,112,145	-	8,112,145
	8,423,292	-	**8,423,292**
Maliyyə öhdəlikləri			
Müddətli borc öhdəlikləri	3,153,676	132,895	3,286,571
Buraxılmış borc qiymətli kağızları	350,000	-	350,000
	3,503,676	**132,895**	**3,636,571**
31 dekabr 2023-cü il tarixinə xalis mövqe	**4,919,616**	**(132,895)**	**4,786,721**

	Azərbaycan Respublikası	İƏİT ölkələri	Cəmi
Maliyyə aktivləri			
Pul vəsaitləri və onların ekvivalentləri	450,049	-	450,049
Müştərilərə verilmiş kreditlər	6,265,458	-	6,265,458
	6,715,507	-	**6,715,507**
Maliyyə öhdəlikləri			
Müddətli borc öhdəlikləri	1,406,696	642,326	2,049,022
Buraxılmış borc qiymətli kağızları	600,000	-	600,000
	2,006,696	**642,326**	**2,649,022**
31 dekabr 2022-ci il tarixinə xalis mövqe	**4,708,811**	**(642,326)**	**4,066,485**

21 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Likvidlik riski. Likvidlik riski maliyyə öhdəliklərindən yerinə yetirilməsində Cəmiyyətin çətinliklərlə üzləşəcəyi riskdir. Buraya faktiki olaraq ödəmə vaxtı çatmış maliyyə alətləri üzrə digər maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcud olması aiddir. Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin öhdəliklər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır. 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə maliyyə alətlərinin ödəmə müddətlərinə görə təhlili aşağıdakı kimidir:

	1 aya qədər	1 aydan 3 aya qədər	3 aydan 1 ilə qədər	1 ildən 5 ilə qədər	5 ildən artıq	Cəmi
Maliyyə aktivləri						
Pul vəsaitləri və onların ekvivalentləri	311,147	-	-	-	-	311,147
Müştərilərə verilmiş kreditlər	26,789	79,599	1,723,832	6,281,925	-	8,112,145
	337,936	**79,599**	**1,723,832**	**6,281,925**	**-**	**8,423,292**
Maliyyə öhdəlikləri						
Müddətli borc öhdəlikləri	9,741	-	408,330	2,868,500	-	3,286,571
Buraxılmış borc qiymətli kağızları	-	-	350,000	-	-	350,000
	9,741	**-**	**758,330**	**2,868,500**	**-**	**3,636,571**
31 dekabr 2023-cü il tarixinə likvidlik çatışmazlığı	**328,195**	**79,599**	**965,502**	**3,413,425**	**-**	**4,786,721**
31 dekabr 2023-cü il tarixinə məcmu likvidlik çatışmazlığı	**328,195**	**407,794**	**1,373,296**	**4,786,721**	**4,786,721**	

	1 aya qədər	1 aydan 3 aya qədər	3 aydan 1 ilə qədər	1 ildən 5 ilə qədər	5 ildən artıq	Cəmi
Maliyyə aktivləri						
Pul vəsaitləri və onların ekvivalentləri	450,049	-	-	-	-	450,049
Müştərilərə verilmiş kreditlər	27,368	67,195	1,635,017	4,535,878	-	6,265,458
	477,417	**67,195**	**1,635,017**	**4,535,878**	**-**	**6,715,507**
Maliyyə öhdəlikləri						
Müddətli borc öhdəlikləri	10,656	-	-	2,038,366	-	2,049,022
Buraxılmış borc qiymətli kağızları	-	-	600,000	-	-	600,000
	10,656	**-**	**600,000**	**2,038,366**	**-**	**2,649,022**
31 dekabr 2022-ci il tarixinə likvidlik çatışmazlığı	**466,761**	**67,195**	**1,035,017**	**2,497,512**	**-**	**4,066,485**
31 dekabr 2022-ci il tarixinə məcmu likvidlik çatışmazlığı	**466,761**	**533,956**	**1,568,973**	**4,066,485**	**4,066,485**	

22 Maliyyə Alətlərinin Ədalətli Dəyəri

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir:

22 Maliyyə Alətlərinin Ədalətli Dəyəri (davamı)

- 1-ci səviyyəyə oxşar aktiv və öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan qiymətlərlə qiymətləndirmələr (təshih edilməmiş)
- 2-ci səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlərdən yaranan) müşahidə edilə bilən ilkin əhəmiyyətli məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr və
- 3-cü səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən ilkin məlumatlar) daxildir.

Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür. Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi bütövlükdə ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.

Ədalətli dəyərlə qiymətləndirilməyən, lakin ədalətli dəyəri açıqlanan aktiv və öhdəliklər

Pul vəsaitləri və onların ekvivalentlərinin balans dəyəri belə maliyyə alətləri üzrə bazar şərtləri ilə bağlanan müqavilələrin qısamüddətli olmasına görə təxminən onların ədalətli dəyərinə bərabərdir. Müştərilərə verilmiş kreditlərin, müddətli borc öhdəliklərinin və buraxılmış borc qiymətli kağızlarının ədalətli dəyəri 2-ci Səviyyə kimi qiymətləndirilmiş və diskontlaşdırılmış pul vəsaitlərinin hərəkətinin təhlilinə əsasən və tərəflərin kredit riskini əks etdirən diskont dərəcəsi üzrə ilkin məlumatlardan istifadə etməklə ümumi qəbul edilmiş qiymətqoyma modellərinə uyğun olaraq müəyyən edilmişdir.

Rəhbərlik hesab edir ki, maliyyə hesabatlarında tanınmış maliyyə aktiv və öhdəliklərinin balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir və ədalətli dəyər iyerarxiyasının 2-ci Səviyyəsinə aid edilmişdir.

23 Maliyyə Alətlərinin Qiymətləndirmə Kateqoriyaları üzrə Təqdim Edilməsi

BMHS 9 "Maliyyə alətləri" standartına uyğun olaraq, maliyyə aktivləri aşağıdakı kateqoriyalara təsnifləşdirilir: (a) FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri; (b) FVOCI kateqoriyasında qiymətləndirilən borc alətləri; (c) FVOCI kateqoriyasında qiymətləndirilən pay alətləri və (d) amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri. FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri iki alt-kateqoriyaya bölünür: (i) FVTPL kateqoriyasında məcburi qaydada qiymətləndirilən aktivlər və (ii) ilkin tanınma zamanı həmin kateqoriyaya aid edilmiş aktivlər.

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə Cəmiyyətin maliyyə aktivləri pul vəsaitləri və onların ekvivalentlərindən və müştərilərə verilmiş kreditlərdən ibarətdir və amortizasiya edilmiş maya dəyərində (AC) tanınan maliyyə aktivləri kimi təsniflaşdirilmişdir.

24 Hesabat Dövründən sonra Baş Vermiş Hadisələr

Hesabat tarixindən hazırkı maliyyə hesabatlarının dərc edilməsi tarixinədək olan dövr ərzində açıqlama üçün heç bir əhəmiyyətli hadisə baş verməmişdir.

GƏLƏCƏK BİZNES NAİLİYYƏTLƏRİNİZİ BİZİMLƏ ƏLDƏ EDİN

UHY AUDIT MMC
Çinar Plaza Biznes Mərkəzi, 25-ci
mərtəbə, 152 Heydər Əliyev pros.
AZ 1029, Bakı, Azərbaycan

Telefon +994 (12) 480 13 62
E-poçt info@uhy-az.com
Veb www.uhy-az.com

"UHY Audit MMC" (Şirkət) Birləşmiş Krallıqda fəaliyyət göstərən "Urbach Hacker Young International Limited" şirkətinin üzvüdür və müstəqil mühasibatlıq və məsləhət xidmətləri şirkətlərini özündə birləşdirən beynəlxalq UHY şəbəkəsinin bir parçasıdır. "UHY" - UHY beynəlxalq şəbəkəsinin ticarət nişanıdır. Burada təqdim edilən xidmətlər "UHY" və ya onun hər hansı digər üzvü tərəfindən deyil, Şirkət tərəfindən həyata keçirilməkdədir. "UHY" və ya onun hər hansı üzvü şəbəkənin digər üzvləri tərəfindən göstərilən xidmətlərə görə heç bir məsuliyyət daşımır.

© 2024 UHY AUDIT MMC.